

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Yazılı salnamələrdə iz salan böyük ziyalı - Nəsir İmanquliyev



5

# SƏS

№ 235 (6918)

22 dekabr 2023-cü il.
Qiymәti 60 qәpik

## Son 20 il - Azərbaycanın dünyada nüfuzunun və etimadının yüksəliş dövrü



4

*PREZİDENT İLHAM ƏLİYEVİN qlobal təşəbbüslərinin dəstəklənməsi dünyada Azərbaycana olan inamın və etimadın göstəricisidir*

# Biz azərbaycanlılar burada əbədi yaşayacağıq!

*Prezident İlham Əliyev Xankəndi stadionunda çıxış edib*



2

**Yol infrastrukturu: 20 günə 13 Sərəncam**



8

**Sülh əleyhinə qan qoxuyan TƏHLÜKƏLİ TƏBLİĞAT**



6

Əli Kərimli erməni arxiyepiskopu kimi çağırışlar edir



14

**"COP29-un ölkəmizdə keçirilməsi xüsusilə əhəmiyyət daşıyır"**




9

**365-in ən uzun gecəsi, həm də Çilləsi...**



14

# Biz azərbaycanlılar burada əbədi yaşayacağıq!














*Prezident İlham Əliyev Xankəndi stadionunda çıxış edib*

Dünən xalqımız daha bir tarixi hadisəyə şahidlik edib. Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları qarşılaşıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oyuna baxmaq üçün stadiona gəliblər. Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndi. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Dövlətimizin başçısı oyundan əvvəl stadionda çıxış edib. Prezident İlham Əliyev öz çıxışında qeyd edib ki, bu futbol matçının Xankəndidə keçirilməsinin çox böyük mənası var:

- Əziz dostlar, Xankəndiyə xoş gəlmisiniz!

İlk dəfədir ki, işğaldan azad edilmiş ərazilərdə futbol matçı keçirilir. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu gün qəhrəman şəhidlərimizin uşaqları, ailə üzvləri bizim yanımızdadır. Gəlin, hamımız birlikdə onları salamlayaq. Bu futbol matçının Xankəndidə keçirilməsinin çox böyük mənası var. Xankəndi qədim Azərbaycan diyarıdır. Bu kəndin təməli Qarabağ xanı tərəfindən qoyulmuşdur və ondan sonra Azərbaycan Respublikasının vəsaiti hesabına Azərbaycan memarları, inşaatçıları tərəfindən böyük şəhər yaradılmışdır. Əfsuslar olsun ki, 30 il ərzində bu şəhərdə separatçılar yuva salmışdılar. Bu şəhər separatizmin rəmzinə çevrilmişdi. Torpaqlarımızı 30 il ərzində işğal altında saxlayan Ermənistan hesab edirdi ki, bunu əbədi edə biləcək. Biz, şanlı Azərbaycan Ordusu onlara və bütün dünyaya sübut etdik ki, bu, bizim tarixi, əzəli torpağımızdır. Bu torpaqların sahibləri bizik, Azərbaycan xalqıdır. Biz buraya qayıtmalı idik və qayıtmışıq.

Üç ay bundan əvvəl Xankəndi işğaldan azad edildi. Birgünlük antiterror əməliyyatı nəticəsində Azərbaycan öz dövlət suverenliyini tam təmin etmişdir, bu gün bütün Qarabağ bölgəsində Azərbaycan Bayrağı dalğalanır. Bu, böyük tarixi hadisədir və bu tarix bizim qəlbimizdə əbədi yaşayacaq. Azərbaycan xalqı, dünya azərbaycanlıları bu Zəfər ilə bundan sonra əbədi fəxr edəcəklər.

Biz - bu torpaqların sahibləri qurub-yaradırıq, o cümlədən Xankəndi şəhərində, Xocalıda, işğaldan azad edilmiş digər ərazilərdə geniş quruculuq-abadlıq işləri aparılır. Bu stadion cəmi iki ay ərzində, demək olar ki, yenidən inşa edilmişdir, əsaslı təmir olunmuşdur. Separatizm simvolikasını əks etdirən bütün yazılar artıq tarixin zibilxanasına atıldı. Bütün başqa şəhərlər kimi, bu gün Ağdam şəhəri də yenidən qurulur. O cümlədən bir neçə aydan sonra Ağdam şəhərində "İmarət" stadionunun yenidən inşa edilməsinə başlanılacaq.

Bugünkü oyunun nəticələrindən asılı olmayaraq qalib bəllidir. Qalib Azərbaycan xalqıdır, Azərbaycan dövlətidir! Bugünkü oyunda "Qarabağ" və Mərkəzi Ordu İdman Klubunun qarşılaşması təbii ki, böyük rəmzi məna daşıyır. Qarabağ–Ordu-Xalq birliyi bizim Zəfərimizin əsas mənbəyidir.

Əziz dostlar, dörd il bundan əvvəl bu stadionda bəziləri "Qarabağ Ermənistandır və nöqtə" demişdilər. Biz onlara sübut etdik ki, Qarabağ Azərbaycandır!

İşğal edilmiş torpaqların böyük hissəsi üç il bundan əvvəl - İkinci Qarabağ müharibəsi nəticəsində işğalçılardan azad edildi. Qarabağın tacı olan Şuşa şəhərində Azərbaycan Bayrağı qaldırıldı. Üç ay bundan əvvəl - sentyabrın 19-20-də Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə rayonları da işğalçılardan azad edildi. Oktyabrın 15-də bütün bu şəhərlərdə mən Azərbaycan Bayrağını ucaltdım. Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında Zəfər paradı keçirildi. Bu gün isə bu gözəl idman bayramını biz birlikdə qeyd edirik. Bundan sonra bu torpaqlarda Azərbaycan Bayrağı əbədi dalğalanacaq. Biz azərbaycanlılar burada əbədi yaşayacağıq! Yaşasın Qarabağ! Yaşasın şanlı Ordumuz! Qarabağ Azərbaycandır!

Sonra Ulu Öndər Heydər Əliyevin idmançılarla görüşləri, idmanla bağlı fikirləri barədə videoçarx nümayiş olundu. Stadiona daxil olan dövlətimizin başçısı futbolçularla və oyunu idarə edən hakimlərlə görüşdü, onlarla xatirə şəkli çəkdirdi.

Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandaları arasında keçirilən oyunun fasiləsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü ilin idman yekunları ilə bağlı təşkil olunmuş mərasimdə idman ictimaiyyətinin təltif edilmiş nümayəndələri ilə də görüşüb.



# 2023-cü il Şuşanın tarixində

## Qarabağın tacı Şuşamız yeni ildə doğma sakinlərini qoynuna alacaq





Yola salacağımız il Şuşanın tarixi yaddaşında necə qaldı? Xalqımızın Ümummilli Lideri Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti İlham Əliyevin yenilməz qətiyyəti, dəmir iradəsi, yeritdiyi güclü daxili və xarici siyasəti, qəbul etdiyi qərarlar, atdığı addımlar, sərgilədiyi diplomatik gedişlər, qazandığımız qələbəni Zəfərimizi şərtləndirən başlıca amillər oldu. Beynəlxalq tədbirlərdə Azərbaycanın haqq sözünü ifadə edərək, Birləşmiş Millətlər Təşkilatının Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasını nəzərdə tutan məlum qətnamələrinin tələbləri yerinə yetirilmədiyini dəfələrlə bildirmişdi. Münaqişənin sülh yolu ilə həll edilmədiyi halda, hərb yolu ilə torpaqlarımız işğaldan azad olunmalı idi. Erməni silahlı qüvvələri 27 sentyabr 2020-ci ildə yeni hərbi təxribatlara başlayanda cavab olaraq Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsi Azərbaycanın tam Qələbəsi ilə nəticələndi. Bu Qələbə xalqımızın üzərindən məğlub, torpaqları işğal altında qalan, qaçqın və köçkün sözünü götürdü. "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" Azərbaycan Prezidenti İlham Əliyevin 2020-ci il noyabrın 8-də Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciəti zamanı səsləndirdiyi bu fikirlər və xalqımıza bu müjdənin verilməsi Azərbaycanın tarixinə açılan yeni səhifələrdən oldu. Artıq biz Şuşaya qayıtmışıq. Alınmaz qala, Qarabağın tacı sayılan Şuşanın tarixi yaddaşı əsrlərin sorağıdır. Daşlaşmış yaddaşda tariximiz var, keçmişimiz, mədəniyyətimiz var. Tarixi-mədəni əhəmiyyət kəsb edən Şuşanın bu gün əvvəlki görkəminin özünə qaytarması, eləcə də dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi üçün sürətli işlər həyata keçirilir. Bu gün Şuşaya gələn qonaqların hər birinə aydın olur ki, Şuşa yeni bir dövrünə qədəm qoyub. Bu gün Böyük Qayıdış üçün lazımı tədbirlər həyata keçirilir. Şuşada reallaşdırılan infrastruktur layihələr və tədbirlər bir daha sübut edir ki, bu müqəddəs şəhər yenidən dirçəlir və yeni bir inkişaf, abadlıq və quruculuq dövrünə qədəm qoyub. Dövlət başçımızın işğaldan azad olunan ərazilərimizə səfəri səfər çərçivəsində görülən işlər bu ərazilərin tezliklə tam abadlaşmasından xəbər verir.

### DAŞALTI KƏND MƏSCİDİ 2024-CÜ İLDƏ İSTİFADƏYƏ VERİLƏCƏK

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Şuşa şəhərində 23 binadan ibarət ilk yeni yaşayış kompleksində aparılan tikinti işlərinin gedişi ilə tanış olub. 23 binadan ibarət yaşayış kompleksinin ümumi sahəsi 8 hektara yaxındır. Burada 8 binanın tikintisinə ötən il iyulun 1-də, 15 binanın inşasına isə sentyabrın 1-də başlanılıb. Kompleksin yaxın vaxtlarda istifadəyə verilməsi planlaşdırılır. Yaşayış kompleksində ümumilikdə 450 mənzil istifadəyə veriləcək. Burada 28 birotaqlı, 195 ikiotaqlı,



190 üçotaqlı, 30 dördotaqlı və 7 beşotaqlı mənzil olacaq. Mənzillərin əksəriyyəti keçmiş məcburi köçkünlərin istifadəsinə veriləcək. Üçmərtəbəli və beşmərtəbəli binalardan ibarət kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılacaq. Keçmiş məcburi köçkünlərin bu binalara köçürülməsinə 2024-cü ilin birinci rübündə başlanılacaq.

Azərbaycan Prezidenti Şuşa şəhərində Aşağı Gövhər Ağa məscidində aparılan bərpa işləri ilə, eləcə də Şuşa rayonunun Daşaltı kənd məscidində tikinti işlərinin gedişi ilə tanış olub. Dövlətimizin başçısına görülən işlər barədə məlumat verilib. Azad edilmiş ərazilərimizdə işğal dövründə düşmən tərəfindən dağıdılmış dini-mədəni abidələrimiz bərpa olunur və yeniləri tikilir. Bunlardan biri də Daşaltı kənd məscididir. Daşaltı məscidinin təməli 2021-ci il noyabrın 7-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Hazırda məsciddə, köməkçi binalarda və istinad divarında dəmir-beton və daş hörgü işləri davam edir. Tikinti işlərinin 2024-cü ilin ikinci rübündə başa çatdırılması planlaşdırılır.

### TARİXİ VƏ DİNİ ABİDƏLƏR TƏMİR VƏ BƏRPA OLUNUR

Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşa şəhərində Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla Şuşa şəhərinin, tarixi və dini abidələrin, muzeylərin planlı şəkildə bərpa olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Şuşada Gövhərağa məscidinin bərpası Azərbaycanın öz dəyərlərinə milli-mənəvi islami dəyərərinə olan ehtiramın nümunəsidir. Dövlət başçısının bildirdiyi kimi, "Bundan sonra biz Şuşada əbədi yaşayacağıq və Şuşanın bərpa edilməsi artıq başlanmışdır. Verilən göstərişlər yerinə yetirilir". Bu gün Şuşa dağları həsrətlə yaşadığı, acıdığı musiqimizə, sənət dünyamıza qovuşub.

Ermənilərin Azərbaycana qarşı başladığı hərbi təcavüz nəticəsində 1992-ci il mayın 8-də Şuşa şəhəri işğal edildi və şəhərdə xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasəti həyata keçirildi. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600 yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evinin, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv ediblər. Şəhərin tarixi muzeyinin 5 minədək əşyası, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət muzeyi Şuşa filialı, Dövlət Qarabağ Tarixi muzeyinin 1000-dək əşyası, peşəkar Azərbaycan musiqisinin banisi, bəstəkar Üzeyir Hacıbəyovun, müğənni Bülbülün, musiqiçi və rəssam Mir Möhsün Nəvvabın xatirə muzeylərinin fondları qarət edilib.



### AZƏRBAYCANIN MƏDƏNİYYƏT PAYTAXTI YENİ DÖVRÜNÜ YAŞAYIR

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Şuşada abadlıq-quruculuq işləri geniş vüsət alıb. Məlumdur ki, Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksinin açılışı olub. Qeyd edək ki, Mehmandarovların malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa olunub. Yaşayış kompleksinə böyük yaşayış binası, kiçik yaşayış binası, ailə məscidi və bulaq daxildir. 2021-ci ilin oktyabr ayından etibarən Mehmandarovların malikanə kompleksində, ərazidəki ailə məscidi və bulaqda təmir-bərpa işləri aparılıb, bulağın damı əvvəlki vəziyyətinə gətirilib. Bulaq Prezident İlham Əliyev 2022-ci ilin sentyabrında kompleksdə bərpa işlərinin gedişi ilə tanış olarkən istifadəyə verilib. Yaşayış evinin həyətində XX əsrin əvvəllərinə aid tarixi fayton da dövrünün texnologiyalarına uyğun bərpa edilib. Görülmüş işlərdən sonra malikanə kompleksində muzey ekspozisiyası qurulub.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu işğaldan azad olunan ərazilərdə 2020-ci il dekabrın 8-dən etibarən mədəni-dini abidələrin, məscidlərin bərpası layihələrinin icrasına başlayıb. Bununla da Heydər Əliyev Fondu tarixi bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi öz dəstəyini göstərir. Aparılan işlərə yerli ekspertlərlə yanaşı, xarici mütəxəssislər də cəlb olunub. Heydər Əliyev Fondunun Qarabağdakı bərpa layihələrinin bir hissəsi isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində həyata keçirilir.

Bir çox əlamətdar hadisələrə şahidlik edən Şuşamızda Şuşa Otel-Konqres Mərkəzi Kompleksi istifadəyə verilib. Erməni işğalı dövründə burada Azərbaycan Prezidentinin təbirincə desək, "şeytan yuvası" – "parlamentin" binasının tikintisi planlaşdırılırdı. Ancaq indi həmin yerdə beşulduzlu otelin açılışı gerçəkləşdirilir. Təməli 2021-ci il avqustun 29-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulan Şuşa Otel-Konqres Mərkəzi Kompleksi şəhərin mərkəzində - Zəfər yolunun üzərində yerləşir. Kompleks fərdi üslubu, yüksək keyfiyyəti və çoxsaylı xidmət növləri ilə fərqlənir. Nadir memarlıq həlli ilə diqqəti cəlb edən, dörd mərtəbədən və zirzəmidən ibarət Şuşa Otel-Konqres Mərkəzi Kompleksində 154 otaq, konfrans və ziyafət zalları, restoran, hovuz, SPA, fitnes və digər xidmət bölmələri yaradılıb.

Dövlət başçısının bu və ya bundan əvvəlki Şuşaya səfərləri çərçivəsində çərçivəsində Heydər Əliyev və 8 Noyabr küçələrinin kəsişməsində lövhələrin açılışı, Şuşada Yuxarı Gövhər Ağa məscidinin yenidənqurma və bərpa işlərindən sonra açılışı, Saatlı məscidinin və Milli Xalça Muzeyinin Şuşa filialının açılışları və s. Şuşanın yenidən qurulmasının təzahürüdür. Şuşa yaşayır və qaynar, yeni dövrü onun işıqlı gələcəyinin lap yaxında olduğundan xəbər verir.

***Zümrüd BAYRAMOVA***

# Son 20 il - Azərbaycanın dünyada nüfuzunun və etimadının yüksəliş dövrü

***Bu gün Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu, dünya birliyində layiqli yer tutması, sözünün imzası qədər əhəmiyyəti, sabitlik diyarı kimi nüfuz qazanaraq bütün sahələrdə inkişafı, bir sözlə, yeniliyə əsaslanan inkişaf modeli liderlik amili ilə birbaşa bağlıdır. Hər bir dəyərləndirmə, hadisələrə düzgün qiymət bu günün fonunda keçilən yolun təhlilini bir tələb kimi qarşıya qoyur. Məhz bu gün Qalib Sərkərdə Prezident İlham Əliyevin "Dəmir yumruq" siyasətinin gücü ilə Güclü Ordumuzun rəşadətli əsgər və zabitlərinin birliyi və qəhrəmanlığı ilə xalqımızın müstəqillik arzularını gerçəkləşdirdi. Və bu gün Azərbaycanın qalib Lideri, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edərək tarixi nailiyyətlər qazanır dünyada getdikcə nüfuzu artan Azərbaycan beynəlxalq münasibətlərdə önəmli rol oynayır, qlobal iqtisadi və humanitar layihələrdə liderlik keyfiyyətləri nümayiş etdirir.***

Ulu öndər Heydər Əliyevin siyasi kursunu son 20 il müddətdə bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin təkmil, yenilikçi siyasətinin nəticəsində Azərbaycanın istər daxildə, istərsə də beynəlxalq münasibətlər sistemində qazandığı uğurların yol açdığı tarixi Zəfərimiz, məhz Qalib Liderimiz İlham Əliyevin «Dəmir Yumruq» siyasəti ilə Güclü ordumuzun qəhrəman əsgər və zabitlərinin rəşadətilə ərazi bütövlüyümüz bərpa oldu, haqq, ədalət qalib gəldi. Və bu gün Azərbaycana olan beynəlxalq baxış, daxildə xalq-Prezident birliyinin, həmrəyliyinin sarsılmazlığı bir daha Heydər Əliyev siyasətinin alternativsizliyinin təsdiqidir. 2003-cü ilin prezident seçkiləri ərəfəsində ulu öndər Heydər Əliyev xalqa etimadın növbəti ünvanını göstərərkən İlham Əliyevə Özü qədər inandığını, gələcəyinə böyük ümidlər bəslədiyini bildirdi. Qazanılmış uğurların davamlılığını, Azərbaycanın xoşbəxt gələcəyini şərtləndirən əsas amillərdən biri kimi Prezident İlham Əliyevin yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyət olmasını xüsusi vurğuladı. Hər birimiz sonsuz sevinc və iftixar hissi keçiririk ki, bugünkü qalib Azərbaycan həmin inamın, etimadın, liderliyin təqdimatıdır. Bugünkü Qalib Azərbaycan həmin inamın, etimadın, liderliyin təqdimatıdır. Son 20 ildə Azərbaycanda həyata keçirilən mühüm tədbirlər beynəlxalq birliyin Azərbaycana inamının, etimadının təzahürü, ölkəmizin və Azərbaycan Prezidenti İlham Əliyev cənablarının qlobal miqyasda nüfuzunun göstəricisidir. Və bu gün Azərbaycan dünyada özünəməxsus milli inkişaf modeli ilə tanınır. Prezident İlham Əliyev bildirir ki, qarşımızda duran strateji vəzifə Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirmək və bütün sahələr üzrə onu dünyanın inkişaf etmiş, rəqabətədavamlı ölkələri sırasına çıxarmaqdır. Bütün bunlar son 20 ildə Qalib Liderimiz Prezident İlham Əliyevin apardığı uğurla, qətiyyətlə Azərbaycanın haqq, ədalət tərəfdarı olduğunun göstəricisidir. Bir sözlə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin düşünülmüş, yeni dünya sisteminin müasir çağırışlarına cavab verən siyasi kursu Azərbaycanı regionun lider dövlətinə çevirməklə yanaşı, beynəlxalq aləmdə ölkəmizi etibarlı tərəfdaş kimi tanıdıb. Ümumiyyətlə, regional və qlobal təhlükəsizlik, əməkdaşlıq məsələlərinə dair təşkil edilən önəmli platformalarda Azərbaycanın iştirakı ölkəmizin beynəlxalq mövqeyini, nüfuzunu əyani şəkildə nümayiş etdirir. Bu kontekstdə qeyd edə bilərik ki, Prezident İlham Əliyev Azərbaycanın dövlət siyasətini dünya dövlətlərinin siyasəti ilə uzlaşdırır, konstruktiv, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan, regional və qlobal miqyasda sabitliyə xidmət edən siyasi xətt yeridir. Bunun təsdiqi üçün çox da uzağa getmək lazım deyil. Sadəcə ölkəmizin qlobal problemlərin öhdəsindən necə uğurla gəldiyini görməyə kifayət edir.

## AZƏRBAYCANIN SƏDRLİYİ DÖVRÜNDƏ QOŞULMAMA HƏRƏKATININ BEYNƏLXALQ ALƏMDƏ NÜFUZU DAHA DA YÜKSƏLİB

Məlum olduğu kimi, Qoşulmama Hərəkatı dünyada BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisatdır. 2019-cu ildən etibarən Azərbaycan Qoşulmama Hərəkatının üzv ölkələrinin yekdil qərarı ilə üç il müddətinə QH-yə sədrliyi həyata keçirməyə başladı.



**PREZİDENT İLHAM ƏLİYEVİN qlobal təşəbbüslərinin dəstəklənməsi dünyada Azərbaycana olan inamın və etimadın göstəricisidir**

Azərbaycanın sədrliyi dövründə gördüyü işlərə, irəli sürdüyü təşəbbüslərə və təsisatın fəaliyyətinin genişləndirilməsi, beynəlxalq aləmdə nüfuzunun artması istiqamətində atdığı addımlara görə ölkəmizə etimadın göstəricisi kimi Hərəkata sədrliyimiz daha bir il uzadıldı. Azərbaycan Prezidenti İlham Əliyevin sayəsində ölkəmiz bu təsisata uğurla rəhbərlik etməklə onun beynəlxalq aləmdə nüfuzunu və rolunu gücləndirib, böyük uğura imza atıb. Dövlətimizin başçısının Qoşulmama Hərəkatının sədri kimi beynəlxalq müstəvidə davamlı və ardıcıl şəkildə irəli sürdüyü təşəbbüs və təkliflər daim həm Hərəkat, həm də digər ölkələrin geniş dəstəyini qazanıb.

Ölkəmizin Hərəkata sədrliyinin ilk illəri COVID-19 pandemiyası ilə əlaqədar dünyanı sarsıdan qlobal səhiyyə böhranı dövrünə təsadüf etsə də, Azərbaycan özünün sədrlik gündəliyini çevik və effektiv şəkildə yeni reallığa uyğunlaşdırdı. Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatı pandemiya ilə mübarizədə qlobal lider rolunu öz üzərinə götürdü və dünya ictimaiyyətini bu təhdidlə mübarizədə səfərbər etdi. 2020-ci ilin mayında Hərəkatın COVID-19 ilə mübarizəyə həsr edilən liderlər səviyyəsində onlayn sammitinin keçirilməsi bu istiqamətdə atılmış ilk addımlardan biri idi. Sammitdə Prezident İlham Əliyev BMT Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr edilən xüsusi sessiyasının keçirilməsini təklif etdi. Bu təklif 150-dən çox ölkə tərəfindən dəstəkləndi və 2020-ci ilin dekabrında xüsusi sessiya uğurla baş tutdu. Yetmişdən çox dövlət və hökumət başçısının çıxış etdiyi bu xüsusi sessiya pandemiya ilə mübarizə sahəsində ən qlobal tədbir oldu. Azərbaycanın Hərəkata sədrliyi dövründə həyata keçirdiyi ən önəmli fəaliyyətlərdən biri peyvənd millətçiliyinə qarşı mübarizə aparması oldu. Təsadüfi deyil ki, Azərbaycanın təşəbbüsü ilə Qoşulmama Hərəkatı tərəfindən həm BMT İnsan Hüquqları Şurasında, həm də Baş Assambleyada "COVID-19 pandemiyası ilə mübarizədə bütün ölkələr üçün peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi"nə dair qətnamələr qəbul edildi.

Qlobal səhiyyə böhranı dövründə Azərbaycan özü də pandemiya ilə mübarizədə olmasına, Vətən müharibəsi aparmasına baxmayaraq, ehtiyacı olan digər dövlətləri də unutmadı. Azərbaycan əksəriyyəti Qoşulmama Hərəkatının üzvləri olmaqla, 80-dən çox ölkəyə koronavirusla bağlı maliyyə və humanitar yardım göstərdi. Təbii ki, bu ölkəmizin Hərəkatın sədri kimi məsuliyyətinin və bəşəri dəyərlərə verdiyi önəmin göstəricisidir. Həmçinin Azərbaycan sözügedən məqsədlə Ümumdünya Səhiyyə Təşkilatına da yardım göstərib və təşkilata 10 milyon ABŞ dolları dəyərində könüllü maliyyə töhfəsi verib. Bu, həm də Azərbaycanın keçdiyi inkişaf yolunun, əldə etdiyi iqtisadi nailiyyətlərin göstəricisidir. Çünki vaxtilə maliyyə yardımı alan Azərbaycan artıq özü fəal donor ölkəyə çevrilib.

Beləliklə, məhz Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının beynəlxalq aləmdə nüfuzu daha da yüksəldi, onun beynəlxalq gündəlikdə duran qlobal məsələlərin həllində rolu daha da artdı. Prezident İlham Əliyevin sədrliyi ilə Hərəkat sürətlə dəyişən bugünkü dünyada öz mövqeyi və yeri olan mötəbər beynəlxalq təsisata çevrilib.

## COP 29-UN AZƏRBAYCANDA KEÇİRİLMƏSİ ÖLKƏMİZİN BEYNƏLXALQ NÜFUZUNUN GÖSTƏRİCİSİDİR

Bu gün Azərbaycan müxtəlif istiqamətlər üzrə bir çox beynəlxalq tədbirlərə ev sahibliyi edib. Bu tədbirlər ölkəmizin tanınması, onun mədəniyyəti, tarixi haqqında məlumatların əldə olunması, iqtisadi imkanlar, gələcək layihələrin və əməkdaşlıq perspektivlərin dəyərləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Beynəlxalq aləmin hər bir üzvünün razılığı BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Bakıda keçirilməsi ölkəmizin alternativ enerjiyə keçiddə öz imkanlarını nümayiş etdirmək üçün mühüm platformadır. Əlbəttə ki, bu, səbəbsiz deyil. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, onun prinsipial mövqeyi sayəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzu artır. Ölkə başçısının apardığı müstəqil siyasət, bütün qərar və addımların beynəlxalq hüququn norma və prinsiplərinə əməl edilməsi, əməkdaşlıq münasibətlərində dürüstlük, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası və digər amillər bütövlükdə Azərbaycana olan münasibəti müsbət mənada dəyişib.

Doğrudur, erməni diasporu və bəzi siyasi qüvvələr revanşist hərəkətlərini davam etməkdədir. Prezident İlham Əliyevin dediyi kimi, "Fransada və bəzi siyasi liderlər ermənilərdən daha çox erməni olmağa çalışırlar. Ancaq onlar da bu vəziyyətlə barışmağa məcbur olacaqlar". Belə ki, 2024-cü ildə dünyanın ən böyük və ən mühüm dövlətlərarası tədbirlərindən birinin Azərbaycanda keçirilməsi Fransadakı erməni havadarlarını ciddi təşvişə salıb. Onlar COP29-un Azərbaycanda keçirilməsinin əleyhinə mətn imzalayıblar. Maraqlıdır ki, Ermənistanın özü Azərbaycanın xeyrinə COP29 sessiyasına ev sahibliyi etmək üçün öz namizədliyini geri götürüb. Yəni, Ermənistan rəhbərliyi Azərbaycanla birbaşa danışıqlar aparmağın adekvatlığını və məlumatlılığını nümayiş etdirdiyi halda, Fransa erməniləri açıq şəkildə bu prosesi pozmağa çalışırlar. Bu və ya digər şəkildə Azərbaycanın düşmənləri növbəti uğursuzluqları ilə barışmalı olacaqlar. Əslində, COP29-un Bakıda keçirilməsində gözlənilməz heç nə yoxdur. Azərbaycan dünya gündəmindəki qlobal problemlərin qarşısını almaq və həll yollarının müəyyən edilməsi üçün mühüm təşəbbüslər göstərən, çağırışlar edən, həmin məsələləri beynəlxalq səviyyədə aktuallaşdıran dövlət kimi kifayət qədər hörmət qazanıb. Bundan başqa, Azərbaycanın irimiqyaslı beynəlxalq tədbirlərə ev sahibliyi etməkdə böyük təcrübəsi var. COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar müşavirədəki çıxışında bu məsələyə toxunan Prezident İlham Əliyev bildirdi: "Hər kəs bilir ki, bu mötəbər beynəlxalq tədbir ikinci dəfə Bakı şəhərində keçirilib. 50 il bundan əvvəl sovet Azərbaycanının paytaxtı olan Bakıda, bu il isə müstəqil Azərbaycanın paytaxtı olan Bakıda bu tədbir keçirilib. Ancaq təbii ki, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. Hətta Avropa Oyunlarını xatırlasaq, o vaxt 5 min idmançı və onları müşayiət edən təqribən 3 min qonaq gəlmişdir. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq".

Bir sözlə, Prezident İlham Əliyevin rəhbərliyi ilə 20 il öncə həyata keçirilməyə başlanan uzaqgörən daxili və xarici siyasət Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxarıb. Dövlətimizin başçısı Azərbaycanın iqtisadi və hərbi qüdrətinin, beynəlxalq nüfuzunun gücləndirilməsi yolunda böyük inam və qətiyyətlə çalışıb. Vətən müharibəsi günlərində döyüşən orduya tapşırıqlarını birbaşa özü verib. Müzəffər Ali Baş Komandan üçrəngli bayrağımızın 30 ildən sonra Qarabağda, Şərqi Zəngəzurda yenidən dalğalanmasına nail olub. Bu Qələbə regionda yeni reallıqların yaranmasına səbəb olub. Azərbaycan Liderinin artmaqda olan nüfuzu ölkənin siyasi gücünü artırmaqla yanaşı ölkəmizi bir çox sahələrdə Avropa qitəsi üçün vacib, əvəzolunmaz və etibarlı tərəfdaşa çevrilib.

***RƏFİQƏ KAMALQIZI***

# Yazılı salnamələrdə iz salan böyük ziyalı - Nəsir İmanquliyev



***Azərbaycanın ictimai həyatının ən mühüm hadisələrindən biri olan milli mətbuatın təməlinin qoyulması Azərbaycan və eləcə də, bütün Şərq aləmi üçün tamamilə yeni siyasi, mədəni və elmi ünsiyyətin yaranmasına səbəb oldu. Maarifçi və demokratik ideyalarını təbliğ edərək, ictimai, siyasi və bədii fikrin inkişafına böyük təsir göstərən mətbuatımız zaman-zaman inkişaf dövrünü yaşayıb.***

Bu məktəbdən bəhrələnərək yetişən ziyalılarımız zamanın nəbzini tutaraq böyük bir məqsədi reallaşdırıblar. Bütün həyatını Azərbaycan mətbuatı və mədəniyyətinin inkişafına, cəmiyyətin obyektiv informasiya tələbatının ödənilməsinə, peşəkar jurnalist kadrların hazırlanmasına həsr edən və 87 il ömür sürən professor Nəsir İmanquliyev əməli, ziyalığı ilə xatirələrdə və yazılı salnamələrdə iz salıb. O, sözün həqiqi mənasında ömrünü, yaradıcılığını milli mətbuatımızın inkişafına, jurnalist kadrların hazırlanmasına həsr edib, həyat və fəaliyyəti maraqlı məqamların axarında davam edib. Uşaqlığı, gəncliyi inqilablardan, repressiya və müharibələrdən keçib. Milli vətənpərvərlik hissləri, ədəbi-mədəni dəyərləri milli mətbuatda özünü göstərib. Tərcümeyi-halını vərəqləyərkən tanış oluruq ki, tale onu "Gənc işçi", "Yeni yol", "Kommunist" kimi qəzetlərin redaksiyalarında püxtələşdirmişdi. Bu qəzetlərdə məsul vəzifələr tutan Nəsir İmanquliyev publisistik və bədii yazıları ilə Həsən bəy Zərdabi ənənələrini dövrün müasir mətbuatına gətirmişdi.

## İMZASI QURUCULARIN CƏRGƏSİNDƏ

Müharibənin odundan-alovundan keçən qələm sahibi 1942-ci ildə Krım cəbhəsində təkcə süngüsü ilə deyil, həm də qələmi ilə döyüşmüşdü. Belə ki, o, "Döyüşən Krım" qəzetində məsul katib, hərbi hissədə tərcüməçi və siyasi işlər üzrə müavin kimi xidmət edir. Qısa bir vaxtdan sonra yenidən "Kommunist" qəzetinə göndərilir. Bu vətənə olan sevgi hissini qələmi ilə xalqa təqdim edib, milli ruhu aşılamaq prinsipindən irəli gəlirdi. "Kommunist" qəzetində məsul katib və baş redaktorun müavini kimi çalışdığı zamanda o, "Döyüşən səhifələr" guşəsi yaratmaqla hərbi vətənpərvərlik ideologiyasına töhfələrini vermiş oldu. 1946-cı ildə o zaman çox-çox qələm sahibinə nəsib olmayan Moskva Mərkəzi Qəzet Kursunu bitirən Nəsir İmanquliyev Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində pedaqoji fəaliyyətə başlayır. Həmin illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsinin nəzdində jurnalistika fakültəsi yaradılır. Elə həmin ildən universitet auditoriyalarına qədəm qoyan böyük publisist və jurnalist Nəsir İmanquliyevin adı həm də universitetin ilk qurucularının cərgəsinə yazılır.

Bakı Şəhər Partiya Komitəsində, sonra Mərkəzi Komitədə təbliğat-təşviqat şöbələrində rəhbər vəzifələrində işləyən Nəsir İmanquliyev təkcə jurnalist, ictimai xadim kimi deyil, həm də radio-televiziya və mədəniyyət qurucusu kimi milli-mənəvi dəyərlərimizin inkişafına töhfələrini vermişdi. Onun Mədəniyyət Nazirliyinin Radio-İnformasiya Baş İdarəsinin rəisi, nazirliyin kollegiya üzvü, Azərbaycan Radio və Televiziya Komitəsində sədr müavini olduğu illərdə xüsusi xidmətlər göstərmişdir. 1958-ci ildə isə onun həyatında, ümumiyyətlə, ictimai-siyasi fikir və mətbuat tariximizdə möhtəşəm bir hadisə baş verir. Bu "Bakı" axşam qəzetinin nəşrə başlamasıdır. Mərkəzi Komitənin qərarı ilə onun baş redaktorluğu Nəsir İmanquliyevə həvalə olunur. Bununla da milli mətbuat tariximizdə Həsən bəy Zərdabinin "Əkinçi"sindən başlayan, Mirzə Cəlilin "Molla Nəsrəddin" ədəbi məktəbində püxtələşən, 1920-ci ildə Demokratik Cümhuriyyət devrildikdən sonra kommunizm ideologiyasına xidmət etməyə məhkum olan milli maarifçilik ideologiyası Nəsir İmanquliyevin "Bakı" qəzetində yaddaşlara qaytarılmış oldu. 30 ildən çox "Bakı", sonra "Baku" qəzetlərinin redaktoru olan Nəsir İmanquliyev bu nəşrlərlə milli mətbuat tariximizə peşəkar jurnalistikanı, dəqiq, qərəzsiz informasiyanı, maarifçilik ruhunu, milli-mənəvi dəyərlərə hörmət hissini gətirmiş oldu. Jurnalistikanın elmi-nəzəri problemlərini işləyən alim həm də onu ciddi elm sahəsinə çevirməklə "jurnalistika dördüncü hakimiyyətdir" ideologiyasını formalaşdırmış oldu.

## VƏTƏNPƏRVƏRLİYİN VƏ MAARİFÇİLİYİN İFADƏSİ

Azərbaycanın tanınmış ziyalılarının, ictimai xadimlərin onunla bağlı söylədiklər fikirlər maraq doğurur. Xalq yazıçısı Elçin Əfəndiyev Nəsir İmanquliyev görkəmli jurnalist, ictimai xadim, pedaqoq olmaqla bərabər, ilk növbədə böyük ziyalı kimi qiymətləndirir: «Bu ziyalılıq yalnız etik bir kateqoriya deyil, eyni zamanda, vətənpərvərliyin və maarifçiliyin ifadəsi idi. Tutduğu vəzifədən, ictimai mövqeyindən asılı olmayaraq, həmin ziyalılıq Nəsir müəllimi ömrünün sonunadək müşayiət etmişdir. Nəsir İmanquliyev Azərbaycan jurnalistikasının mötəbər ağsaqqalı idi. O, bu ağsaqqallıq səlahiyyətini həm şəxsiyyəti, həm də əməli ilə qazanmışdı. "Bakı" qəzeti sovet Azərbaycanında ən cavan rəsmi qəzet idi. "Bakı" qəzeti Bakı Partiya Komitəsinin orqanı idi və aradan keçən illərin sınağı göstərdi ki, bu qəzet əslində, partiya doğmalarına yox, xalqa xidmət etmişdir. Sovet dönəmində respublika həyatının bütün sahələri – iqtisadiyyat, mədəniyyət, təhsil, sosial problemlər və s. ilə bağlı dərc olunan materialları bu gün bir daha gözdən keçirdikdə məlum olur ki, əslində, Nəsir müəllimin rəhbərlik etdiyi "Bakı" qəzeti üçün partiya qərarları, partiya şüarları yox, sözün böyük və milli mənasında vətəndaş təəssübkeşliyi əsas olmuşdur".





Nəsir İmanquliyev çox canlı, çevik, gülərüz, güclü yumor hissinə malik bir insan olmaqla bərabər, çox prinsipial şəxsiyyət idi. Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anarın sözlərinə görə, müharibə illərində Rəsul Rza ilə birlikdə oldmuşdur: «Atamla bir yerdə Krım cəbhəsində ordu qəzetinin Azərbaycan redaksiyasında çalışdıqlarını bilirdim. Bu qəzetin Azərbaycan redaksiyasının rəhbəri tənqidçi və teatrşünas Cəfər Cəfərov idi. Çox illər sonra Cəfər Cəfərova fəaliyyətinin müharibə dövrü ilə bağlı böhtan atılanda onunla birlikdə Krım cəbhəsində olmuş yazıçı və jurnalistlər Rəsul Rza, Əli Vəliyev, Abbas Zamanov, İbrahim Novruzov, Cəfər Cəfərovu müdafiə edən məktub yazmışdılar, onun ən ağır şəraitdə özünü cəsur apardığını təsdiq etmişlər. Məktuba imza atanların biri də Nəsir İmanquliyev idi».

Gəlişi ilə jurnalistika sahəsində məktəbini yaradan Nəsir İmanquliyev ən böyük əsərləri onun yetirmələri, baş yazarı olduğu "Bakı" və "Baku" qəzetləri olmaqla yanaşı, Şərqi və Qərbi birlik, qardaşlıq fəlsəfəsinə səsləyən Bakı Dövlət Universitetinin professoru, AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru, ərəb filologiyası üzrə məşhur tədqiqatçı alim, filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyeva olub. Bu gün onun ailəsində tərbiyə alan və bu şəcərəni davam etdirən insanlar Azərbaycanın nüfuzlu şəxsləridir.

## OXUCU AUDİTORİYASINI PEŞƏKARLIĞA SÖYKƏNƏN İNFORMASİYA SİYASƏTİ MÜƏYYƏNLƏŞDİRİR

Nəsir İmanquliyev xidmətindən söz açarkən vurğulamaq lazımdır ki, o, 1942-1945-ci illər müharibəsi zamanı mətbuatın rolundan namizədlik dissertasiyası yazıb, dərslikləri, dərs vəsaitləri, həmmüəllifi olduğu sanballı monoqrafiyaları, tərcümə ədəbiyyatının ən gözəl nümunələri sayılan kitabları ilə tanınıb. Böyük Vətən müharibəsindəki, quruculuq illərindəki fədakar əməyinə görə dəfələrlə orden və medallarla təltif olunan Nəsir İmanquliyev milli mətbuatımızın inkişafındakı xidmətlərinə görə iki dəfə "Qızıl qələm" mükafatına, "Əməkdar mədəniyyət işçisi", "Əməkdar jurnalist" fəxri adlarına layiq görülmüşdür. Bütün bunlar onun zəngin həyatının, yaradıcılığının kiçik bir yazıda qeyd olunan məqamlarıdır.

Dövrünün, zamanının aynasını yaradan Nəsir İmanquliyev ömrünün 50 ilini Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində milli kadrların hazırlanmasına sərf etmişdir. Onun müasir Azərbaycan jurnalistikasında ən böyük və danılmaz xidmətlərindən biri qəzetdə informasiya xidmətinin yüksək statusunun bərpası yolundakı yaradıcılıq əzmkarlığı olmuşdur. Mütəxəssislərin qənaətinə görə, qəzetdə informasiya yaradıcılığını ən vacib və gərəkli sahə hesab edən Nəsir İmanquliyev "Bakı" və "Baku" qəzetlərinə rəhbərlik etdiyi illərdə bir daha təsdiq etmişdir ki, istənilən mətbu orqanın simasını, nüfuzunu, oxucu auditoriyasını onun düşünülmüş və peşəkarlığa söykənən informasiya siyasəti müəyyənləşdirir.

## HƏYATI BOYU FƏALİYYƏTİNDƏ MİRZƏ CƏLİL ƏNƏNƏLƏRİNİ DAVAM ETDİRDİ

Professor Nərgiz Paşayeva onun fəaliyyətini özündən əvvəlki ziyalıların ənənələrini davamçısı tək qiymətləndirir: "Vaxtı ilə Mirzə Cəlillər, Şahtaxtılar, Faiqlər, Əlibəylər xaçaturovlara qarşı mübarizə aparırdılar. Onlar azərbaycandilli, türkdilli qəzetlər nəşr etdirirdilər. Bu, böyük hadisə, şücaət, hünər idi. Çünki o zaman çar Rusiyasında belə bir hünərə malik olan, Azərbaycan millətinə xidmət edən insanlar arxasız idilər. Onlar hökumət, dövlət tərəfindən dəstəklənmirdilər. Amma onların qəlbi, ürəyi gördükləri müqəddəs işlərə, amallara dəstək verirdi. Bu da həqiqi vətənpərvərlik idi. Nəsir İmanquliyev də elə bir məktəbin yetirməsidir. O, bütün həyatı boyu öz fəaliyyətində Mirzə Cəlil ənənələrini davam etdirmişdir. Əgər Mir Cəlal müəllim Mirzə Cəlil ənənələrini ədəbiyyatda davam etdirirdisə, Nəsir İmanquliyev bu ənənələri jurnalistikada, mətbuatda yaşadırdı".

Nəsir İmanquliyev geniş dünyagörüşlü, nadir mütəxəssis, savadlı, təcrübəli, siyasi cəhətdən həddindən artıq yetkin insan olaraq iz salıb. Belə simanın - Nəsir İmanquliyev mənalı ömür yolu, səmərəli elmi, pedaqoji fəaliyyəti, mətbuatımızın inkişafındakı xidmətləri geniş şəkildə tədqiqi və öyrənilməsi əhəmiyyət daşıyır.

Nəsir İmanquliyevin yetirmələrinin çoxu milli mətbuatımızın salnaməsini yaradan qələm sahiblərinin cərgəsindədir. O, cismən aramızda olmasa da əməlləri ilə qəlbimizə əbədi həkk olunub və həmişə böyük ehtiramla yad edilir. Nəsir İmanquliyev cəsarətli, iradəli, hünərli, həqiqəti deməyə və yazmağa qadir olan bir şəxsiyyət idi. O, insanlara yol göstərən, xeyirxahlıq edən nəcib insan idi. Odur ki, ziyalılar onu heç vaxt unutmur və əməlləri ilə yaşayır.

***Zümrüd BAYRAMOVA***



# Sülh əleyhinə qan qoxuyan TƏHLÜKƏLİ TƏBLİĞAT

***Erməni arxiyepiskopunun fikirlərindən, bəyanatlarından bizə artıq çoxdan bəllidir ki, o qətiyyən Cənubi Qafqazda sülhün tərəfdarı olmayıb və hətta müharibənin, münaqişənin qızışdırılması üçün bacardığını edir. Zorakılığı təbliğ edən, ərazi iddiaları ilə çıxış edən, ermənilələri azərbaycanlıların qətlinə təhrik edən birinin sülhün əleyhinə olması bir aksiomdur, çünki bütün dediklərindən sonra qətiyyən isbata ehtiyacı qalmır. Onun çıxışlarından qan qoxusu gəldiyini uzaqdan da təyin etmək çətin deyil və erməni arxiyepiskopu Baqrat Qalstanyanın belə təxribatçı nitqi sülhə deyil, müharibəyə, münaqişəyə, insan tələfatına sövq edən ən təhlükəli təbliğatdır.***

“Bəli, mən özümü revanşist hesab edirəm və həyatımın son saniyəsinə qədər də belə yaşayacağam”, - deyən Erməni Apostol Kilsəsinin Tavuş yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyan əslində, bir etiraf etmiş olub. Etiraf etmiş olub ki, onun özü də revanşistdir və qisas almağı, insanları qətlə yetirməyi, qan tökməyi, işğal etməyi, başqalarına mənsub olanı mənimsəməyi və sadalananların fonunda qanunsuzluqları, cinayət əməllərini məqbul hesab edir. O, bu cinayət əməllərini nəinki başqalarına, hətta özünə də rəva bildiyini açıq-aşkar şəkildə bildirir. Yəni, heç çəkinmədən bəyan edir ki, onun özü belə bir revanşist olaraq, cinayət əməllərini, qanunsuzluğu dəstəkləyir, hətta ermənilərə bununla bağlı bir çağırış da edir. İstənilən halda qanunsuzluğa, cinayətkarlığa bu qədər açıq şəkildə çağırış heç bir müstəviyə, heç bir normaya sığışan deyil və bu təxribatçı təbliğatına qətiyyən dırnaqarası yanaşılmamalıdır.

“Biz düşünməliyik ki, biz yer üzündə Allahın işi ilə, ədalətin, həqiqətin və xilas yolunun bərpası ilə məşğuluq. Bəli, bu, qisas yoludur. Evinizi geri qaytarmağın başqa hansı yolu var?”, - deyə fikirlər səsləndirən Erməni Apostol Kilsəsinin Tavuş yeparxiyasının rəhbəri nəyi təbliğ etdiyinin fərqində deyilmi? Fərqində deyilmi ki, təxribatçılıq edir və öz cəfəng fikirləri ilə insanları cinayətə, qanunsuzluğa dəvət edir? Bilmirmi ki, onun dedikləri zorakılığın təbliğidir? Başa düşmürmü ki, “öz evinizi geri qaytarmağın başqa hansı yolu var”, - deyərək, sayıqladığı zaman birmənalı şəkildə ərazi iddiası ilə çıxış edir? Başa düşür. Özü də çox yaxşı başa düşür, amma qətiyyən bunu etməkdən çəkinmir, çünki cəzasız qalacağına əmindir və bilir ki, qanundan, beynəlxalq hüquqdan və normalardan dəm vuran beynəlxalq qurumlar da, özünü demokratiya carçısı kimi göstərən ölkələr də, sadəcə, müşahidəçi mövqedən çıxış etməklə kifayətlənmiş olacaqlar.

Maraqlıdır ki, Baqrat Qalstanyanın təxribat xarakterli belə sərsəm fikirlərinə niyə hələ də reaksiya verilməyib? Ötən həftənin bazar günündən, yəni, Qalstanyanın təxribatçı fikirlər səsləndirdiyi gündən bu vaxta qədər bir dənə də olsa beynəlxalq təşkilat, ələlxüsus da beynəlxalq müstəvidə qanun müdafiəçilərindən biri də olsa niyə erməni arxiyepiskopuna “gözün üstündə qaşın var” deməyib? Niyə bu vaxta qədər Avropa Parlamentinin üzvlərindən bircəciyi belə bununla bağlı bir kəlmə də fikir bildirməyib? Azərbaycanın hər addımını izləyən, əsassız olaraq, ədalətsizlik edərək, ölkəmizə qarşı narazılığını bildirənlərin biri də ağzını açıb danışmayıb və həmin o erməni arxiyepiskopunu qınamayıb. Rəsmi Bakını hər addımda qınamağa çalışan Fransa prezidenti Emmanuel Makron da özünü görməməzliyə və eşitməməzliyə vurub, yoxsa, arxiyepiskopun dediklərini vecinə də almır? Bəs həmin ölkənin senatorları niyə ağızlarına su alıblar? Azərbaycanla bağlı ən xırda məsələlərə burun soxan Fransa şəhər merlərindən bu təxribatçı bəyanata, təhlükəli təbliğata niyə reaksiya yoxdur? Yoxsa, ermənidir deyə, ağlına gələni danışa, istədiyi kimi təxribatçı bəyanatlarla çıxış edə və vəhşiliyi, qanunsuzluğu, cinayətkarlığı, işğalçılığı, ərazi iddialarını təbliğ edə bilər, deyə düşünürlər?

Diqqətçəkən məqamlardan biri də odur ki, erməni arxiyepiskopu öz təxribatçı fikirlərini məhz Bakı ilə İrəvan arasında sülh sazişinin imzalanmasına ümidlərin yarandığı bir vaxtda səsləndirir. Ermənistan tərəfi sülh təşəbbüsü ilə bağlı hansısa addımlar atmaq qərarına gəldiyi bir vaxtda arxiyepiskop Qalstanyan da bunun əksinə olaraq, təxribat xarakterli fikirləri ilə erməni cəmiyyətini qıcıqlandırmaq, münaqişəyə, müharibəyə təhrik etmək istəyir. Azərbaycan və Ermənistan hərbçilərinin mübadiləsindən bir neçə gün sonra erməni arxiyepiskopun sayıqlamasına, revanşizmi təbliğ etməsinə təxribatçılıqdan başqa nə ad vermək olar? Zənnimizcə, Bakının və İrəvanın sülh yolunda ilk real addımlar atmağa başladığı zamanda Qalstanyanın təxribatçı fikirlər səsləndirməsinə heç Avropa Şurasının rəhbəri Şarl Mişel də biganə qalmamalı idi. Çünki o səsləndirdiyi fikirlərlə olduqca təhlükəli təbliğat aparır və sülh təşəbbüsünə qarşı olmaqla yanaşı, həm də erməniləri müharibəyə, münaqişəyə təhrik etməyə çalışır.

Əslində, sülh yolunda ilk real addımları, təşəbbüsləri alqışlayanların elə hamısı erməni arxiyepiskopun təxribatçı fikirlərinə müşahidəçi mövqe sərgiləməməlidirlər. Ona xatırladılmalıdır ki, Ermənistan-Azərbaycan sərhədi boyunca 2020-ci ilin iyulunda məhz erməni hərbçilərinin törətdiyi təxribatlara, təxribatçılığa görə məlum toqquşmalar olub. Xatırladılmalıdır ki, toqquşmaların Ermənistan tərəfinin təhrikindən sonra baş verdiyini Ermənistan Respublikasının eks-prezidenti Robert Koçaryan da açıq şəkildə bildirib, etiraf edib və deməli, təxribatçılıq qətiyyən diqqətdən yayınan deyil. Məhz erməni arxiyepiskopuna başa salınmalıdır ki, onun hərhansı təxribat xarakterli bəyanatı, təhlükəli təbliğatı da eyni şəkildə münaqişənin qızışdırılmasına səbəb olur, sülh təşəbbüsünə zərbə vurur və bu özü də heç kəsin diqqətindən kənarda qala bilməz.

Azərbaycana qarşı ərazi iddiaları ilə, daha dəqiq desək, işğalçılığı təbliğ etmək niyyəti ilə təkcə Qalstanyan çıxış etməyib. Ermənilərin keçmiş katolikosu I Vazgenin 1988-ci il fevralın 25-də Mixail Qorbaçova açıq məktub göndərərək, Qarabağın Ermənistana birləşdirilməsini tələb etməsi də tarixi faktdır. Ərazi iddiasını dəstəkləyən, qonşu ölkənin ərazisinə qarşı işğalçılıq siyasətini müdafiə edən II Qaregini də hər kəs xatırlayır. Özünü erməni Apostol Kilsəsinin qondarma “Artsax” yerarxiyasının rəhbəri kimi təqdim edən Pargev Martirosyan da öz sayıqlamaları ilə, tərxribatçı fikirləri ilə hər zaman diqqəti cəlb edə bilib. ABŞ-a qaçaraq aradan çıxan Martirosyanın pafoslu fikirlər səsləndirməsi, sonra da dabanına tüpürüb ölkəni tərk etməsi heç ermənilərin özlərinin də gözündən yayınmayıb. Bir çox erməni blogerlərin onun haqqında qeyd etdikləri təsdiq edir ki, kimliyi heç ermənilərin özləri tərəfindən də qəbul edilən deyilmiş. Onun hələ ötən əstin axırlarında, daha dəqiq desək, Şuşa işğal edildiyi zaman mənzilləri paylaması, kimə hansı mənzili verməyi özü qərarlaşdırması, “müqəddəs ata” adlandırdıqları birinin azərbaycanlılara məxsus mənzilləri istədiyi kəslərə verməsini məsələn, erməni bloger Roman Baqdasaryan heç də doğru, düzgün hesab etmədiyini açıq şəkildə bildirib. Hətta o qeyd edib ki, bir zamanlar mənzilləri paylayan birinin, özü də “müqəddəs ata” kimi özünü göstərənin camaatı atıb qaçması olduqca gülüncdür, utancvericidir.

Maraqlıdır, baş götürüb ABŞ kimi bir ölkəyə “qaçmaq” elə də asan məsələ deyil və onun bunu nəyin hesabına edə bildiyi də sual doğurur axı. Amerikada yaşamaq özü də böyük vəsaitlər tələb edir. Soruşmaq ayıb olmasın, həmin o Martirosyan kimilərinə hardan olur belə külli miqdarda vəsaitlər? Axı nə dədələrindən bir şey qalıb, nə də hansısa var-dövləti onlar üçün kimsə miras qoymayıb. Təbii ki, Ermənistanı, erməni xalqını keçmişindən, əldə etməli olduqlarından məhrum etmək bahasına oynadıqları çirkin oyunlar hesabına var-dövlət qazanıblar və bu həvəslə də indi həmin ölkəni gələcəyindən məhrum etmək fikrindədirlər. Ölkələrinin çətin duruma düşməsi onların heç birinin vecinə də deyil və yalnız özlərini düşünürlər. Elə məhz buna görə də Ermənistan uduzmaqda, itirməkdə davam edir və indi Cənubi Qafqazda ən zəif, ən rəzil və səfalət içərisində olan ölkədir. Məsələ burasındadır ki, elə həmin o katalikoslar, arxiyepiskoplar hələ də əl çəkmək niyyətində görünmürlər və onsuz da səfalət içərisində olan Ermənistan adlı ölkəni daha dərin quyuya sürükləməkdədirlər. Məhz sülh təşəbbüsü ortada olduğu zaman, Ermənistanın həmin o quyunun dərinliyindən çıxmaq şansı əldə etdiyi zaman təxribatçı fikirlər, bəyanatlar səsləndirənlər, təhlükəli təbliğata əl atanlar bu şansı da ermənilərin əllərindən almış olurlar. Ermənistanın çətin vəziyyətdən, hətta fəlakətlərdən qurtara biləcəyinə ermənilərin yenicə ümidlərinin yarandığı bir vaxtda təxribatçı fikirlərlə sayıqlamaq Ermənistan üçün çox təhlükələr yaratmaq deməkdir. Kimlərisə qızışdırmaq, ümumiyyətlə, erməni xalqını yeni təxribatlara, müharibələrə, məğlubiyyətlərə sürükləmək, bütövlükdə Ermənistan üçün, erməni cəmiyyəti üçün təhlükəli sonluq vəd edir. Hər halda, Erməni Apostol Kilsəsinin Tavuş yeparxiyasının rəhbəri arxiyepiskop Baqrat Qalstanyana bunu başa salmaq lazımdır. Başa salmaq lazımdır ki, təxribatçı fikirlərlə ilə yalnız erməniləri, Ermənistan adlı dövləti uçuruma doğru səsləmiş olur.

Dəfələrlə şahidi olmuşuq ki, ermənilər hər dəfə sülhə bir addım yaxınlaşdıqları zaman hansısa qüvvələr öz təxribatçı fikirləri ilə buna mane olmağa çalışıblar. Əmin-amanlığın, normal qonşuluq münasibətlərinin təmin olunması istiqamətində addım atıldığı zaman erməni cəmiyyətini kimlərsə qarşıdurmalara, münaqilələrə, müharibələrə sövq etməyə can atıblar. İnsan tələfatının olacağını nəzərə belə almadan təxribat xarakterli bəyanatlar səsləndirməkdən çəkinməyiblər. Ərazi iddialarını, işğalçılığı, cinayətkarlığı körükləyən təhlükəli təbliğatlar aparmaq üçün əllərindən gələni ediblər. Ələlxüsus da belə təxribatçılığı arxiyepiskopuun, katalikosun, yeparxiya rəhbərinin etməsi, humanizmi tərənnüm etməli olan erməni din xadimlərinin insan tələfatına rəvac verən təhlükəli təbliğata əl atması təəssüf, eləcə də təəccüb doğurur. Çünki heç bir dini təfəkkürdə insan tələfatı, qan tökülməsi, insanların əzab-əziyyətlə qarşı-qarşıya qoyulması, nifaq salınması və ümumiyyətlə, sülhün əleyhinə olmaq təbliğ edilmir. Hər halda, cəmiyyətdə, insanlar arasında humanizmi təbliğ etməli olduları təqdirdə, məhz onların erməni cəmiyyətini qanunsuzluğa, cinayətkarlığa səsləməsi daha tənqidi reaksiyaya səbəb olmalıdır. Həm erməni cəmiyyətinin, həm Ermənistan hakimiyyətinin, həm də beynəlxalq təşkilatların belə bir reaksiya verməsi çoxdan gözləniləndir. Ona görə ki, təxribat xarakterli bəyanatlar, ümumiyyətlə, belə təhlükəli təbliğat, qarşıdurma təhriki olaraq, ilk növbədə, sülhün əleyhinədir və sülh təşəbbüsünü dəstəkləyən beynəlxalq təşkilatlar da, özlərini demokratiyanın beşiyi, insanların hüquq və azadlıqlarının vətəni kimi təqdim edən dövlətlər də buna qarşı çıxmalıdırlar.

***İnam Hacıyev***

# Ulu Öndər Heydər Əliyevin yolu Vətənə və xalqa xidmət nümunəsidir



***Azərbaycan xalqı tarixin müxtəlif dövrlərində çətin, ağır sınaqlarla üz-üzə qalsa da, heç zaman haqqının qorunması, hüquqlarının müdafiəsi uğrunda mübarizəsindən imtina etməmişdir. Əksinə, ağrı-acılar xalqı bir-birinə daha sıx birləşdirmişdir. Qətiyyət və cəsarət, nəhayət, özünün qalibiyyəti ilə nəticələndi. 30 avqust 1991-ci ildə Azərbaycan parlamentinin - Ali Sovetin növbədənkənar sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul etdi. Bəyannamədə Azərbaycan Respublikasının 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu vurğulanırdı.***

Təəssüflər olsun ki, bəzi qüvvələr çətinliklə qurulan müstəqilliyi hakimiyyət uğrunda savaşa qurban verməyə çalışdılar. Ötən əsrin 90-cı illərin əvvəllərində Azərbaycanda bütün sahələrdə hərc-mərclik, özbaşınalıq, xaos hökm sürürdü. Hakimiyyətdə olan AXC- Müsavat cütlüyü mövcud vəziyyəti aradan qaldırmaqdansa, haqq uğrunda səsini qaldıran xalqın səsini batırmağa çalışırdı. Hətta küçələrə çıxan insanlara atəş açmaqdan, həbs edib, türmələrə atmaqdan çəkinmirdilər. Vəziyyətin idarəolunmaz dərəcədə kritik olmasından istifadə edən Ermənistan ardıcıl olaraq Azərbaycanın torpaqlarını işğal edirdi.

### Azərbaycan xalqının ümid yeri Ümummilli Liderimiz Heydər Əliyev idi

O zaman vəziyyət o qədər çətin və ağır həddə çatmışdır ki, ölkəmiz müstəqil dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Azərbaycanı belə çətin vəziyyətdən xilas etmək üçün yeni bir siyasi təşkilatın yaradılmasına ehtiyac vardı. Hər zaman olduğu kimi, bu dəfə də Azərbaycan xalqının ümid yeri Ümummilli Liderimiz Heydər Əliyev idi. Məhz bu məqsədlə 1992-ci il oktyabr ayının 16-da 91 nəfər Azərbaycan ziyalısı yeni bir siyasi partiyanın yaradılması təşəbbüsü ilə Heydər Əliyev dühasına xüsusi müraciət ünvanladı. Həmin ilin oktyabrın 24-də Ulu Öndərimiz Heydər Əliyev ziyalıların müraciətinə müsbət cavab verdi. Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsisi konfransı keçirildi və Dahi Öndərimiz partiyanın Sədri seçildi. Tarixi çıxışlarının birində Ümummilli Lider Heydər Əliyev müstəqilliyimizin ilk illərində ölkəmizdə cərəyan edən çətin, ağır dövrü barədə demişdir: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı" "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", – deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz".

Xalqın çağırışı ilə ikinci dəfə hakiyyətə gələn Ulu Öndərimiz ölkəni və xalqı üzləşdiyi bəlalardan xilas edə bildi. Bu baxımdan, 1993-cü ilin 15 İyun Milli Qurtuluş Günü - Azərbaycanın inkişafında, müstəqilliyində müstəsna rol oynayan tarixi gündür. Xilaskarlıq missiyasını öz üzərinə götürən Dahi Öndər Heydər Əliyev daxili və xarici düşmənlərimizin bütün planlarını iflasa uğradaraq, 1993-cü il iyunun 9-da Bakıya gəldi və 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi və həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu.

### Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin dövlət və xalq üçün gördüyü əvəzsiz işləri böyük təşəkkürlə yad edir

Ulu Öndərin apardığı müdrik siyasət nəticəsində köklü problemlər tədricən həll edildi, sosial-iqtisadi sahədə uğurlara imza atıldı və bu da əhalinin sosial vəziyyətinin yaxşılaşmasına təkan oldu. Lakin pozucu qüvvələr yenə də meydana çıxıb, ölkədə qarşıdurma yaratmağa, ictimai siyasi sabitliyi pozmağa cəhd etdilər. Xalqın Ulu Öndər Heydər Əliyevin ətrafında sıx birləşməsi nəticəsində 1994-cü il oktyabr, 1995-ci il mart dövlət çevrilişlərinin qarşısı qətiyyətlə alındı. Ordu quruculuğuna xüsusi önəm verən Dahi Öndərimiz Heydər Əliyev qısa müddətdə bu istiqamətdə müsbət nəticələrə nail oldu. Məhz ordu quruculuğunun müsbət nəticələri olaraq 1994-cü ildə Horadiz əməliyyatı ilə düşmənin işğal etdiyi 23 kənd və qəsəbə azad edildi. Bundan sonra qorxuya düşən Ermənistan 1994-cü ilin may ayında atəşkəs haqqında müqavilə imzalamağa məcbur oldu. Bundan sonra iqtisadi inkişafın təməlinin möhkəm əsaslar üzərində qurulması üçün Ulu Öndər iqtisadi islahatlar həyata keçirdi. 1994-cü il sentyabrın 20-də əsasını qoyduğu "Əsrin müqaviləsi" ilə dünyanın neft siyasətini birmənalı şəkildə Xəzər regionuna istiqamətləndirdi. Bu yeni neft strategiyası Xəzərin Azərbaycan sektorunda 15 ölkənin, 33 iri neft şirkətinin iştirakı ilə 22 neft-qaz müqaviləsinin imzalanmasına səbəb oldu. Ulu Öndər Heydər Əliyevin humanist siyasəti sayəsində 1995-ci ilin may ayında əfv və amnistiya təsisatları bərpa edildi. Buna paralel olaraq insan hüquqlarına riayət olunması üzərində parlament nəzarətini təşkil etmək üçün insan hüquqları müvəkkili (Ombudsman) institutu yaradıldı. Bütün bunlar isə ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmini və gücləndirilməsi istiqamətində əhəmiyyətli faktorlardan biri idi. Ulu öndər Heydər Əliyev 22 fevral 1998-ci il tarixli xüsusi Fərman imzalayaraq Konstitusiyada öz əksini tapmış insan hüquqlarının həyata keçirilməsinin asanlaşdırılmasını hüquqi əsasda təsbit etmiş oldu. Bununla yanaşı, 1993-cü ildən Ulu öndərin şəxsi təşəbbüsü ilə icrasına moratorium qoyulmuş ölüm hökmü 10 fevral 1998-ci il tarixli Qanunla tamamilə ləğv olundu. Beləliklə, insan və vətəndaş hüquq və azadlıqlarının əhatə dairəsi genişləndirildi. Bu isə demokratikləşmə prosesini olduqca sürətləndirdi.

### 44 günlük Vətən müharibəsində qazanılmış qələbə Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq

2003-cü ildən Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən Prezident İlham Əliyev apardığı müdrik, uzaqgörən siyasəti ilə ölkəmizə daha böyük uğurlar bəxş edib. Yenilməz Sərkərdə, Prezident İlham Əliyevin gördüyü işlərin zirvəsində ərazi bütövlüyümüzü bərpa etməklə Ata vəsiyyətini yerinə yetirməsi dayanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini bərpa etdi. 44 günlük Vətən müharibəsində qazanılmış qələbə Azərbaycan tarixinə qızıl hərflərlə yazılan tarixi səhifə oldu. 2020-ci ildə Müzəffər Ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ərazi bütövlüyünü bərpa etdi, müqəddəs Qarabağımız işğaldan azad olundu. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Azərbaycan xalqına çatdırarkən demişdir: "Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!". 2023-cü ilin aprelin 23 -də Xankəndi-Laçın yolunun başlanğıcında, Həkəri çayının üzərində sərhəd- keçid məntəqəsi quruldu. 2023-cü ilin senntyabrın 19-da başlayan antiterror tədbirləri ilə Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə və digər ərazilərdə suverenliyimiz bərpa olundu. Cari ilin oktyabrın 15-də isə Prezident İlham Əliyev Xankəndi meydanında Azərbaycanın üçrəngli bayrağının dalğalanmasını təmin etdi. Noyabrın 8-də isə Xankəndi şəhərində qələbə paradı keçirildi. Bütün bunlar qürurverici və hər bir azərbaycanlıda böyük sevinc hissi yaradır.

Bir sözlə, Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin dövlət və xalq üçün gördüyü əvəzsiz işləri böyük təşəkkürlə yad edir. Bu baxımdan, Azərbaycan deyəndə Ulu Öndər Heydər Əliyev, Ulu Öndər Heydər Əliyev deyəndə Azərbaycan yada düşür. Dahi Öndər Heydər Əliyev tarixi çıxışlarında qeyd etdiyi kimi, "Azərbaycan durduqca mən var olacam". Ulu Öndər daim qəlblərdə və ürəklərdə yaşayacaq və yad ediləcək.

**İLHAM ƏLİYEV**

# Yol infrastrukturu: 20 günə 13 Sərəncam



***Ümummilli Liderimiz Heydər Əliyev deyirdi: "Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir". Bəli, abad yol məxsus olduğu ölkənin əsasən iqtisadi vəziyyətinin göstəricisidirsə, digər tərəfdən isə insan amilinə verilən dəyərin, bütün bunların fonunda isə mədəni cəmiyyətin, rifahlı həyatın göstəricisidir.***





Əsası Ulu Öndərimiz tərəfindən qoyulan inkişaf strategiyasını layiqincə davam etdirən Prezident İlham Əliyev ölkəmizdə bütün sahələr kimi, yol infrastrukturunu da daim diqqət mərkəzində saxlayır. Bütün bunların nəticəsidir ki, paytaxt Bakı və buradan regionlara şaxələnən yollar beynəlxalq standartlara cavab verən səviyyədə yenilənir. Müstəqillik illərində ölkəmizdə tək şəhərlər deyil, ucqar kənd yolları da yenilikdən pay alır, insanların rahatlığı, təhlükəsizliyi təmin edilir. Ötən müddətdə 17 min kilometrdən çox avtomobil yolu, 500-dən çox körpü və tunel tikilib və ya təmir olunub. Azərbaycan bu gün avtomobil yollarının keyfiyyətinə görə MDB ölkələri arasında birinci yerdədir. Davos hesabatına əsasən isə bu baxımından Azərbaycan dünyada 27-ci yerdədir.

## 13 istiqamətdə yeni yollar

Bu gün Azərbaycan müharibədən cəmi 3 ildir, çıxan bir ölkədir. Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilmiş ərazilərində sürətlə bərpa işləri görülür. Dövlətimizin əsas xərcləri həmin şəhər, qəsəbə və kəndlərin yenidən qurulmasına ayrılır ki, soydaşlarımız tezliklə öz ata-baba yurdlarına qayıda bilsinlər. Belə bir dövrdə dövlət başçısı tərəfindən yol infrastrukturunun yaxşılaşdırılması məqsədilə dekabr ayının 20 günündə 13 Sərəncamın imzalanması, bunun üçün 33 milyona yaxın vəsaitin ayrılması və bu işlərin azad olunmuş torpaqlarda aparılan böyük miqyaslı tədbirlərlə paralel şəkildə həyata keçirilməsi ölkəmizin iqtisadi gücünün göstəricisidir.

Həm paytaxt Bakının, həm də regionlarımızın yollarının müasirləşdirilməsini prioritet məsələ kimi diqqətdə saxlayan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Suqovuşan-Sərsəng su anbarı-Qozlukörpü-Kəlbəcər avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" 4 dekabr, "Şuşa-Laçın avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" 5 dekabr 2023-cü il Sərəncamları azad torpaqlarımıza uzanan yolların yenidən qurulmasına xidmət edir.

Dövlətimizin başçısının "Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" və "Gədəbəy rayonunun Kiçik Qaramurad- Cəfərli-Əyrivəng-Alnabat-Kərimli-İnəkboğan-Göyəmli-Şınıx-Göyəlli-Çobankənd-Şahdağ-Çiçəkli avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" 8 dekabr, "Bakı şəhərinin Qaradağ rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" və "Yardımlı rayonunun Masallı-Yardımlı (44 km)-Sırıq-Əfçədulan-Horavar-Əngövül-Zəngələ-Vərov-Keçələkəran avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" 11 dekabr 2023-cü il tarixli Sərəncamları isə Bakı şəhərinin və buradan bölgələrə istiqamətlənən yolların keyfiyyətinin artırılmasına yönəlmiş tədbirlərdir.

Eləcə də Prezidentin "Abşeron rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" 13 dekabr və "Bakı şəhərinin Xəzər rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" 14 dekabr, "Bakı şəhərinin Nərimanov rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" 15 dekabr, "Bakı şəhərinin Nizami rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" və "Quba rayonunun Qırmızı Qəsəbə qəsəbəsini Qusar rayonunun Quxuroba kəndi ilə birləşdirən Qırmızı Qəsəbə-Quxuroba avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" 18 dekabr, "Bakı şəhərinin Sabunçu rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" və "Astara rayonunun Düriyyə- Şümrüd avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" 19 dekabr 2023-cü il tarixli Sərəncamları 20 gün ərzində imzalanmış 13 dövlət sənədi olmaqla, ölkəmizin yollarının abadlığı, yenidən qurulması, ümumilikdə isə insanların rahatlığı məqsədi daşıyır. Bu sərəncamların icrası ilə ölkəmizin çox əhəmiyyətli minlərlə kilometr avtomobil yolu beynəlxalq standartlara uyğun, müasir şəkildə tikiləcək və vətəndaşların istifadəsinə veriləcəkdir.

## 30 il əvvəlki, 30 il sonrakı yollar

Belə bir deyim var: görünən kəndə nə bələdçi? Bu deyimlə yola çıxıb onu yollara da şamil etməklə deyə bilərik ki, görünən yol da özü haqqında özü məlumat verir, ona bələdçi lazım deyil.

Yəqin ki, ölkəmizin 30 il əvvəlki, yeni müstəqilliyimizdən öncəki yollarını xatırlayanlar olar. Şəhərli-kəndli avtomobil, kəndarası yolların miskinliyi insanların rahatlığını əlindən almışdı. Bundan kənd yerlərində yaşayanlar daha çox əziyyət çəkirdilər. Şəhərlərə gedən yollara yenə də kəndlərlə müqayisədə bir qədər yaxşı demək olardı. Lakin rayonlararası, kəndlərarası yollar demək olar ki, bərbad vəziyyətdə idi. Onların abadlaşdırılması haqqında isə düşünən yox idi. İnsanlar yarım saatlıq yolu saat yarıma qət etməli olurdular. Kəndlərdən rayon, şəhər mərkəzlərinə getmək bu qədər vaxta başa gəlirdi. Bu da əhalinin vaxt itkisinə səbəb olurdu. Həmin ərazilərdə yaşayan sakinlərin bir gün vaxtını alırdı. Hələ xəstə insanların xəstəxanalara çatdırılması daha çətin idi. Dəfələrə şahidi olmuşuq ki, yolların bərbadlığı üzündən insanlar həyatla vidalaşıblar. Onları vaxtında xəstəxanaya çatdırmaq mümkün olmurdu.

Statistikaya nəzər yetirsək, o illərdə yol qəzalarının miqyası ilə də tanış ola bilərik. Payız-qış aylarında yağışlı-qarlı bərbad yollar daha təhlükəli olurdu. Bu səbəbdən də yol qəzaları tez-tez baş verirdi.

Kəndiçi yolların vəziyyəti isə daha dözülməz idi. Elə ki yaz, payız fəsli oldu, yağışlar yağmağa başladı, palçıqlı yollar insanları əldən salırdı. Bu yollarla iş yerinə, mağazaya, baxçaya, məktəbə yollanmaq böyük çətinlik yaradırdı. Hələ uşaqların vəziyyəti daha dözülməz idi. Çünki onların gücü çatmırdı ki, palçıq tutmuş ayaqlarını qaldırıb addım atsınlar. Evlərindən müəyyən qədər məsafədə yerləşən məktəblərə uşaqlar belə çətinliklə gedib-gəlirdilər. İşıqlandırılması olmayan belə yollarda gecələr hərəkət etmək həm təhlükəli, həm də çətin idi. Bu səbəbdən də insanlar işlərini elə planlaşdırırdı ki, axşam toran vaxtından sonra küçəyə çıxmasınlar.

Bir rayondan digər rayona, bir kənddən digər kəndə uzanan yollar da bərbadlıqda heç də kəndiçi yollardan geri qalmırdı. Bərbad yollar həm bir neçə saat çox vaxt sərfinə, həm də yolçuların yorğunluğuna səbəb olurdu.

Müstəqilliyimiz bərpa olunan illərdə tənəzzülə uğramış iqtisadiyyatımız sonralar dirçəldikcə, bütün sahələr kimi, yol infrastrukturu da ildən-ilə yenilənməyə başladı. Planlı şəkildə həyata keçirilən yol tikintisi bu gün müasirliyi ilə göz oxşayır. Həinki şəhərlərimizə, ucqar kəndlərimizə belə hamar, asfaltlı yollar uzanır. Bu yollar insanların vaxt itkisini də aradan qaldırıb. Onlar istədikləri yerə rahat şəkildə gedib-gələ bilirlər. Bəzən qış aylarında kəndlərimizdə olarkən uşaqların məktəbə gediş-gəlişini gördükcə o illərin əziyyətlərini yada salır və bugünkü inkişafımızla, dövlətimizin vətəndaşına münasibəti ilə qürur duyuruq. Bu gün paytaxt Bakıdan hansı regiona üz tutursan tut, səni mənzil başına abad yollar aparır. Bu yollarda nə vaxt itirirsən, nə də ki yorulursan. Çünki bu yollar müstəqillik illərində bir neçə dəfə təmir olunub, indi isə beynəlxalq standartlara uyğunlaşdırılır.

### "Zəfər yolu"- 30 ilin yolu

Bu yolu biz qətrə-qətrə düşməndən azad etdik, metr-metr abadlaşdırdıq. Bu yol 30 il idi ki, düşüncələrimizdə xəyali bir yol idi, sonda gerçəyə çevrildi. Biz 30 il idi ki, Qarabağa, işğal olunmuş rayonlarımıza gedən yollardan xəbərsiz idik. 30 il idi ki, bizi o torpaqlara aparan yollar yağı tapdağı altında idi. Ölkəmizin sürətlə inkişaf edən iqtisadiyyatı, dövlətimizin başçısının düşünülmüş siyasəti nəticəsində 2020-ci ilin payızında cəmi 44 gündə İkinci Vətən Müharibəsi ilə torpaqlarımızı düşməndən geri aldıq. İtkilərimiz oldu, sağlamlıqlarını itirən qazilərimiz oldu. Lakin biz şərəfimizi qoruduq, canımız bahasına torpaqlarımızı geri aldıq.

Müharibə bitən kimi dərhal torpaqlarımızda quruculuq işlərinə başlanıldı. Bu gün Qarabağda miqyasına görə dünyaya səs salan işlər həyata keçirilir. Yol infrastrukturu isə azad torpaqlarımızda başlanan ilk iş oldu. Çünki abadlığa, inkişafa aparan yol bu yollardan keçməli idi. Ötən illərin ən gözəl, bənzərsiz yolu çəkildi Şuşaya- "Zəfər yolu". Bu yol Qarabağın baş tacı olan Şuşaya 30 ilin hicranının üstündən çəkilən vüsal yolu oldu. Zəfərimizin, qələbəmizin, şərəfimizin yolu oldu. Bu yol Hacıqabul-Horadiz, Ağbənd-Zəngəzur magistral avtomobil yolunun 149-cu kilometrliyindəki Əhmədbəyli kəndindən başlayır və Füzuli şəhəri, Böyük Tağlar kəndindən, Çaxmaq meşəsi və Daşaltı kəndindən keçərək Şuşa şəhərinə çatır. Yolun layihə uzunluğu 101,9 kilometrdir. İki hərəkət zolağından ibarət olan yol 2021-ci il oktyabrın axırlarında istifadəyə verilib.

Şuşaya digər avtomobil yolu Hacıqabul-Horadiz–Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun 157-ci kilometrliyindən başlayır. Uzunluğu 81,6 kilometrdir, dörd-altı hərəkət zolağı var. Yol üzərində körpü və tunellər çəkilməsi nəticəsində yüksək sürət təmin olunacaq və "Zəfər yolu" ilə müqayisədə 20,3 kilometr qısa olacaq. Avtomobil yolunun 2024-cü ildə başa çatdırılması nəzərdə tutulub. Bu gün Laçına, Kəlbəcərə, Zəngilana, Cəbrayıla, Füzuliyə, Ağdama, işğaldan azad edilmiş rayonlarımızın hər birinə yollar çəkilir. Çəkilir ki, bu yollar sonadək Böyük Qayıdışa şahid olsun.

### Yol turizmdir

Azərbaycan özünün coğrafi mövqeyinə görə beynəlxalq aləmdə xüsusi əhəmiyyət daşıyır. Ona görə ki, ölkəmiz Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən mühüm nəqliyyat qovşağında yerləşir. Buna görə də müxtəlif səbəblərdən ölkəmizə gələn insanlar buradakı turizm imkanlarından da növbəti səfərlərində yararlanmaq istəyirlər.

Yol isə həm də turizmdir, turizmin var olmasının, inkişafının, perspektivinin əsasıdır. Ölkəmiz hər il minlərlə turistin üz tutduğu ünvanlardan olduğu, həm də turizmə hər fəsil qoyun açdığı üçün illərdir ki, turistik bölgələrimizə gedən yollar abadlaşdırılır. Bu gün Şəkiyə, Şamaxıya, Qubaya, Qəbələyə və digər rayon və şəhərlərə abad yollar uzanır.

Biz insanlar belə bir psixologiyaya malikik ki, ən gözəl yerə abad yolla getmiriksə, bir daha səyahət üçün gözəlliyinə, səfalılığına baxmayaraq oranı seçmirik. Abad yolu olan başqa yerlər axtarırıq. Deməli, yol həm də turizmin özüdür. Turizm, ilk növbədə, yoldan başlanır, desək daha yerinə düşmüş olar. Turizm üçün məkan, hava, ətrafdakı istirahət mərkəzləri, xidmət sahələri nə qədər əhəmiyyətlidirsə, yol bütün bunlardan dəfələrlə əhəmiyyətlidir. Çünki biz rahatlıq tapa biləcəyimiz, istirahət edəcəyimiz yerlərə həmin yollarla gedirik. Və o yollar bizdə ilkin təəssüratları yaradır. O təəssüratlarla da gedəcəyimiz yerə növbəti dəfə də üz tuta və yaxud oradan birdəfəlik imtina edə bilərik. Ölkə başçısının sərəncamları ilə 13 istiqamətdə tikiləcək yeni avtomobil yolları da gələcəkdə turizmin inkişafına töhfələr verəcəkdir. Çünki bu yollar da Vətənimizin dilbər guşələrinə aparan yollardır. Yaxın gələcəkdə bu yerlərin sakinləri kimi, qonaqları da həmin yolların abadlığına, gözəlliyinə heyranlıqla baxacaqlar.

### Yol mədəniyyət, həm də həyatdır

Mədəniyyətdir, ona görə ki, yol mənzil başından xəbər verir. Mənzilbaşı isə ölkələrdir. Yollar ölkənin iqtisadiyyatını ortaya qoyur. İnkişafından, tərəqqisindən söhbət açır. Yol ölkələrin rəhbərlərinin insan amilinə dəyərindən danışır.

Yol mədəniyyətdir, əgər abaddırsa. Yol mədəniyyətdir, əgər müasirdirsə O yolda ki, təhlükə yoxdur, deməli, mənsub olduğu ölkədə böyük mədəniyyət vardır. Çünki insan amilinə dəyər verilir. Onların rahatlığı, təhlükəsizliyi diqqətdə saxlanılır. Avtomobil ötdükcə toz-duman qalxırsa, çala-çökəklərin üzərindən keçdikcə içəridə əyləşən insanlar narahat olursa, yol yol deyil, mədəni səviyyə isə yerində deyil, deməkdir.

Yol bir də həyatdır. Bəli, həyatdır. Evimizdən iş yerimizə, mağazaya, marketə, parka, metroya, məktəbə və sair yerlərə qədər məsafədən tutmuş dünyanın üz tutacağımız bütün ölkələrinədək, yol həyatdır. Çünki bu həyatın içərisində biz insanlar varıq. Bizim rahatlığımız bir metrdən kilometrlərədək uzanır. Biz bir metrdə də, min kilometrdə də rahat, təhlükəsiz olmalıyıq. Buna haqqımız var, çünki insanıq. Həyatda rahatlıq, firəvanlıq şəraitində yaşamaq da haqqımızdır. Yol həyatdır. Təhlükəsizdirsə, bəli, həyatdır. Çünki evimizdən çıxıb hansısa yola üz tuturuqsa, o yol evə dönəcəyimizə təminat olmalıdır.

Nə xoş bizə ki, Azərbaycan kimi ölkənin vətəndaşlarıyıq. Burada insan amilinə o qədər dəyər verilir ki, müharibədən cəmi 3 ildir çıxmış ölkədə budur, yeni yollar çəkilir. Həm də Qarabağda gedən quruculuq işləri ilə paralel şəkildə. Deməli, dövlətimizin siyasətində insan amili ən vacib prioritetdir. 20 gün ərzində yol infrastrukturunun yaxşılaşdırılması ilə bağlı imzalanan 13 Sərəncam buna bariz nümunədir.

***Mətanət Məmmədova***

# Bakıda Azərbaycan-Türkiyə İnvestisiya Forumu keçirilib

***Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi və Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə Bakıda Azərbaycan-Türkiyə İnvestisiya Forumu keçirilir. Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Türkiyə Respublikası Ticarət Nazirliyi, Türkiyə Respublikası Prezidentinin Maliyyə ofisinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi– AZPROMO və Türkiyə-Azərbaycan İş Adamları və Sənayeçiləri İctimai Birliyinin (TÜİB) birgə təşkilatçılığı ilə Azərbaycan-Türkiyə İnvestisiya Forumu keçirilir.***



Tədbirdə dövlət rəsmiləri ilə yanaşı, hər iki ölkədən energetika, sənaye, tikinti, logistika, qida sənayesi, kənd təsərrüfatı, maliyyə, turizm, əczaçılıq, İKT və digər sahələrdə fəaliyyət göstərən şirkət nümayəndələri iştirak ediblər.

Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov, Türkiyə Prezidentinin Maliyyə İdarəsinin müdiri Göksel Aşan və Türkiyə Respublikasının ticarət naziri Ömər Bolat forumda çıxış ediblər.

Vurğulanıb ki, dövlət başçılarımızın yorulmaz səyləri, şəxsi dostluq və qardaşlıq münasibətləri, ardıcıl təşəbbüsləri, qarşılıqlı rəsmi səfərləri və görüşləri sayəsində müttəfiqlik münasibətləri bu gün ən yüksək zirvəyə çatıb. Türkiyə ilə Azərbaycan arasında tərəfdaşlıq münasibətləri bütün istiqamətlər üzrə inkişaf etməkdə və güclənməkdədir. Azərbaycan-Türkiyə qardaşlığının möhkəmlənməsində ulu öndər Heydər Əliyevin xidmətləri misilsizdir.

2021-ci il iyunun 15-də imzalanmış Şuşa bəyannaməsi də çoxvektorlu əməkdaşlıq potensialımızın, strateji məsələlərdə fəaliyyətimizin əlaqələndirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Beynəlxalq və regional müstəvidə ölkələrimizin maraqlarını təmin edən əməkdaşlıq həyata keçirilir. Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar çərçivəsində fəaliyyətlər önəmlidir.

Ölkələrimiz arasında imzalanmış sənədlər, o cümlədən investisiyaların təşviqi və qarşılıqlı qorunması, həmçinin ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlər ikitərəfli hüquqi bazamızı daha da möhkəmləndirib. Bu günədək iki ölkə arasında yüzlərlə işgüzar tədbir, biznes forumlar, ixrac missiyaları, işgüzar görüşlər və sərgilər keçirilib ki, bu da biznes dialoqun genişlənməsini birgə layihələrin icrasını stimullaşdırıb. Enerji sahəsində səmərəli əməkdaşlıq, uğurla reallaşdırılan birgə təşəbbüslər beynəlxalq arenada ölkələrimizin mövqeyini daha da gücləndirməklə yanaşı, regional təhlükəsizlikdə və enerji təchizatında mühüm rol oynayır. Forumda nəqliyyat sektorunda həyata keçirilən birgə strateji layihələr, xüsusilə Orta Dəhliz və onun şaxələndirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Qeyd olunub ki, Azərbaycan-Türkiyə qardaşlığı iqtisadi tərəfdaşlığın inkişafında xüsusi əhəmiyyət kəsb edir. Türkiyə Azərbaycanın 2-ci əsas ticarət tərəfdaşıdır. 2023-cü ilin 11 ayında ticarət dövriyyəmiz təxminən 7,2 milyard ABŞ dolları təşkil edib. Bu göstərici ötən ilin analoji dövrü ilə müqayisədə 33% artıb. Ticarət əməkdaşlığında müşahidə olunan müsbət dinamika dövlət başçıları tərəfindən qarşıya qoyulan hədəfə sürətlə çatacağımıza inam yaradır.

Azərbaycanın xarici ölkələrdə ən çox investisiyanı Türkiyəyə yatırıb. Həmçinin, ölkəmizdə qeyri-neft-qaz sektoruna investisiya yatıran ölkələr sırasında Türkiyə 1-ci yerdə qərarlaşıb. Qarşılıqlı sərmayələrin təşviqi və sahibkarlığa dəstək sahəsində imkanların artırılması iqtisadi tərəfdaşlığı təşviq edir.

Tədbirdə Azərbaycanın Türkiyədəki ticarət nümayəndəsi Tamerlan Tağıyev tərəfindən ölkəmizin biznes və investisiya mühiti barədə təqdimat keçirilib.

Forum çərçivəsində Azərbaycan və Türkiyə qurumları arasında sənədlərin imzalanması mərasimi baş tutub.

AZPROMO və TÜİB arasında imzalanmış 2024-cü il üçün Fəaliyyət Planında ölkələrimiz arasında ticarət və investisiya həcmini artırmaq, iki ölkə arasında əməkdaşlığı gücləndirmək və qarşılıqlı investisiya imkanlarını dəstəkləmək və davamlı inkişaf məqsədlərinə uyğun birgə layihələri təşviq etmək nəzərdə tutulub. DO-DEM MMC ilə "Multipak Ambalaj"şirkəti arasında imzalanmış müqaviləyə əsasən Azərbaycanda kağız əsaslı, təbiətə zərər verməyən və qida təhlükəsizliyinə əsaslanan qabların istehsalı ilə üzrə fabrik tikiləcək. "Diplomat LTD" ilə "Doğru Holding" arasında imzalanmış sənədə uyğun olaraq şirkət tərəfindən Azərbaycanda hotel tikiləcək.

Forum Azərbaycanda investisiya qoyuluşu imkanları, ticarət dövriyyəsinin artırılmasında nəqliyyat və logistika mərkəzlərinin rolu, kənd təsərrüfatı və qida sənayesi, həmçinin "yaşıl" enerji, müdafiə sənayesi və sağlamlıq turizmi üzrə panel sessiyalarla öz işini davam etdirib.

***Elçin***

# "COP29-un ölkəmizdə keçirilməsi xüsusilə əhəmiyyət daşıyır"

***"COP29 konfransının region və dövlət olaraq Azərbaycanda keçirilməsinə qərar verilməsi ölkəmizin dünya miqyasında böyük nüfuzunun göstəricisidir". Bunu SİA-ya açıqlamasında politoloq Tural Rzayev deyib.***

Onun sözlərinə görə, bundan əvvəl də Azərbaycan müxtəlif beynəlxalq konfranslara ev sahibliyi edib: "Azərbaycan yaşıl enerji məsələsində müasir enerji tendensiyalarını izləyir. Xüsusilə də torpaqlarımızı erməni işğalından azad edildikdən sonra Azərbaycan yaşıl enerji konsepsiyasına xüsisi önəm verir və bu istiqamətdə bir sıra uğurlu layihələr həyata keçirir. Məlumdur ki, Qarabağda klassik enerji üsullarından deyil, müasir enerji üsullarından istifadə olunacaq. Yəni alternativ və bərpa olunan yaşıl enerjidən istifadə olunması nəzərdə tururlur. Azərbaycan yaşıl enerji ilə bağlı bir sıra ölkələrlə əməkdaşlıq münasibətləri qurur və bu əlaqələr dah da genişlənməkdədir. Beynəlxalq təşkilatların fəaliyyətində aktivlik nümayiş etdirməsində Azərbaycanın böyük təcrübəsi mövcuddur. Əminliklə demək olar ki, Azərbaycanda keçiriləcək COP29 konfransı uğurlu nəticələrlə yadda qalacaq".

***Gülyana***

**MÜNASİBƏT**



**_Bu gün HƏMAS-İsrail savaşı dünyanın ən qaynar hadisələri sırasında öndə gedir. 666 gündür ki, davam edən Ukrayna-Rusiya savaşı belə Yaxın Şərq müharibəsini kölgədə qoya bilmir. Hazırda nə baş verir? Mənbələrin bildirdiyinə görə, İsrailin bir həftəlik atəşkəs müqabilində girovları azad etmək təklifi Fələstinin HƏMAS hərəkatı tərəfindən rədd edilib. "The Wall Street Journal" yazır ki, Misir rəsmiləri atəşkəs razılaşması qüvvəyə minməzdən əvvəl HƏMAS-ın girovların azad edilməsi məsələsini müzakirə etməkdən imtina etdiyini bildiriblər._**



# HƏMAS: qələbəyə ümid yox, amma...

## *Qrup daxilindəki fikir ayrılıqları atəşkəsi hədələyir*



HƏMAS-ın siyasi büro rəhbəri İsmayıl Haniyə İsrailin təklifini müzakirə etmək üçün dekabrın 20-də Qahirədə kəşfiyyat rəsmiləri ilə görüşüb, lakin o, Misirə tam atəşkəs və humanitar yardımın artırılmasına təkan vermək üçün gəldiyini bildirib. Danışıqlarda ilk dəfə olaraq Fələstin İslami Cihadının nümayəndələri iştirak etməli idi. Lakin onlar hər hansı danışıqlar başlamazdan əvvəl atəşkəs tələb ediblər. Onlar həmçinin 100 girov müqabilində bütün fələstinli məhbusların azad edilməsini tələb ediblər.

BMT Təhlükəsizlik Şurasında dekabrın 20-nə planlaşdırılan səsvermə ABŞ-ın tələbi ilə növbəti dəfə təxirə salınıb. "Reuters"in məlumatına görə, BMT Təhlükəsizlik Şurası Qəzzaya humanitar yardım, habelə bu yardımın BMT tərəfindən çatdırılmasına nəzarətlə bağlı qətnamə qəbul etməli idi. Səsvermə bir neçə gündür ki, təxirə salınıb, çünki mənbələrə görə, ABŞ BMT-nin Qəzza zolağına bütün tədarüklərə nəzarət mexanizmini inkişaf etdirməsini tələb edən qətnaməyə qarşıdır. Hazırda Qəzzaya bütün humanitar yardımlar İsrailin nəzarətindədir.

Oktyabrın 7-də HƏMAS-ın işğalı İsraildə 1200 nəfərin ölümünə, 240 nəfərin əsir götürülməsinə səbəb olub. 7 günlük atəşkəs zamanı 100-ə yaxın girov İsraildə həbsdə olan 240-a yaxın fələstinli ilə dəyişdirilib. Səhiyyə orqanlarının açıqladığı son rəqəmlərə görə, İsrailin Qəzza zolağına endirdiyi zərbələr nəticəsində 8 mini uşaq olmaqla azı 20 min insan həlak olub. Yaralıların sayı 52500 nəfəri ötüb, onlardan 8663 nəfəri uşaqdır.

Misir dekabrın 20-də Həmas siyasi bürosunun nümayəndə heyətini qəbul edib. Əsas mövzulardan biri girovların mübadiləsi üçün İsraillə yeni müqavilənin mümkünlüyü olub. Proses dekabrın 1-də Benyamin Netanyahu hökumətinin yaraqlıları atəşkəsi pozmaqda ittiham etməsi və hərbi əməliyyatların bərpa olunduğunu elan etməsi ilə kəsilib. Yeni humanitar mübadilə haqqında razılaşma HƏMAS daxilindəki ziddiyyətlərlə çətinləşə bilər. HƏMAS-ın siyasi bürosunun rəhbəri İsmayıl Haniyənin Misirə gəlməsi hərəkat tərəfindən rəsmən təsdiqlənib. Səfərdən bir müddət əvvəl Qərb KİV-i məlumat yayıb ki, qrupun yüksək səviyyəli nümayəndələrindən ibarət nümayəndə heyəti Misir Baş Kəşfiyyat İdarəsinin rəhbəri Abbas Kamel ilə girovların azad edilməsinə dair yeni sazişin parametrlərini müzakirə etməyi planlaşdırır.

HƏMAS-ın ardınca Qəzza zolağında fəaliyyət göstərən digər qrup Fələstin İslami Cihadının (FİC) nümayəndə heyəti də yaxın günlərdə Qahirəyə səfər edəcək. "Misirə səfər zamanı biz təcavüzü dayandırmağın yollarını və girovların mübadiləsinə dair razılaşmanı müzakirə edəcəyik", - deyə FİC rəhbəri Ziyad əl-Nəhhal bildirib: "Biz Qahirəyə aydın bir baxışla gedirik: təcavüzü dayandırmaq, düşmən qüvvələrini Qəzza zolağından çıxarmaq və anklavı bərpa etmək lazımdır".

Ən-Nəhhalın şərhlərindən göründüyü kimi, girovların məhbuslarla mümkün mübadiləsinə dair öz baxışına malikdir. Mübadilə "hamı üçün" prinsipi əsasında və HƏMAS-ın rəhbərliyi altında Fələstinin bütün siyasi qüvvələrinin razılaşacağı siyasi proses çərçivəsində baş tutacaq", - deyə o, izah edib.

Dünən Reuters öz mənbələrinə istinadən xəbər verib ki, tərəflər yeni atəşkəs çərçivəsində HƏMAS-ın bəzi fələstinli məhbusların azad edilməsi müqabilində bir qrup israilli girovu geri qaytarması perspektivini müzakirə edir. Mübadilə edilməli olanların sayı hələ də müzakirə olunur. İsrail tərəfi qadınların və xəstə kişilərin mübadiləsi üçün siyahıya daxil edilməsində təkid edir. Axios portalının məlumatına görə, Netanyahu hökuməti HƏMAS rəhbərliyinə humanitar razılaşmanın öz versiyasını təklif edib: Qəzza zolağında saxlanılan 40-a yaxın girovun azad edilməsi müqabilində bir həftəlik atəşkəs.

Bu zaman HƏMAS Siyasi Bürosu diplomatik çeviklik nümayiş etdirməyə və sonsuz münaqişə konsepsiyasından imtina etməyə hazır olduğuna dair siqnallar göndərir. Siyasi qanadın üzvü Hussam Badran "The Wall Street Journal" ilə söhbətində deyib ki, onun yoldaşları təkcə döyüşmək istədikləri üçün vuruşmurlar. "Biz sıfır məbləğli oyunun tərəfdarı deyilik" deyib: "Biz müharibənin bitməsini istəyirik".

RAKURS

Ardı Səh. 11

# HƏMAS: qələbəyə ümid yox, amma...







Əvvəli-Səh-10

Nəşr HƏMAS-ın yüksək rütbəli rəsmisinin bu şərhlərini Qəzza zolağı ətrafında genişmiqyaslı müharibənin başladığı 7 oktyabrdan bəri hərəkatın əsas komandirlərinin dediklərindən “kəskin dönüş” adlandırır. Badran ayrıca məlumat verib ki, Siyasi Büro digər Fələstin fraksiyaları ilə ərəb bölgələrinin müharibədən sonrakı strukturunun necə olması barədə danışıqlar aparır. Xüsusilə, Fələstin Azadlıq Təşkilatı (Fəth) ilə dialoq qurulub, onunla, “The Wall Street Journal”-ın qeyd etdiyi kimi, HƏMAS-ın siyasi qolunun nümayəndələri tarixən ziddiyyətli münasibətlərə baxmayaraq, eyni düşərgə daxilində qarşılıqlı fəaliyyətin əleyhinə deyillər. ”Biz Qəzzada, İordan çayının qərb sahilində və Qüdsdə Fələstin dövləti yaratmaq istəyirik”, - Badran qeyd edib. - Bu, milli dialoq olacaq. Biz həmişə demişik ki, Fələstin Azadlıq Təşkilatına istənilən Fələstin fraksiyası daxil ola bilər”.

Badran açıq şəkildə bildirib ki, koalisiya yanaşması beynəlxalq ictimaiyyətlə danışıqları asanlaşdırmalı və tənqidçilərin etimadını qazanmağa kömək etməlidir. Bu, xüsusilə HƏMAS ilə heç bir əlaqə saxlamaq istəməyən Avropa dövlətlərinə aiddir. Eyni zamanda, Badran qeyd edib ki, onların demilitarizasiya kimi İsrailin tələblərini yerinə yetirmək arzusu yoxdur.

HƏMAS və FƏTH arasında danışıqlar HƏMAS-ın silahlı qanadının arxasında gedir, onun əsas sözçüsü, 7 oktyabr quru işğalının təşkilatçısı və İsrailin Qəzza zolağında ”ən çox axtarılan adamı” Yəhya Sinvarın qəzəbləndiyi barədə şayiələr var. Ətrafındakıların fikrincə, Sinvar münaqişə ilə bağlı radikal fikirlərə malikdir və müharibəni udacaqlarına inanır. Onun sözlərinə görə, güzəştə getmək hələ tezdir. Nəzərə alsaq ki, əvvəllər bildirildiyi kimi, girovların dəyişdirilməsi əməliyyatlarının və onların parametrlərinin əlaqələndirilməsinə məhz Sinvar cavabdehdir, onun əhval-ruhiyyəsindən çox şey asılı olacaq. Onun diplomatiyaya hazır olduğunu bildirən siyasi büro ilə fikir ayrılıqları pik həddə çatarsa, bu, HƏMAS və İsrail rəhbərliyi arasında danışıqlar prosesinin keyfiyyətinə təsir edə bilər.

## İsrail tərəfi nə düşünür?

İsrail hökuməti Hizbullah və yerli HƏMAS emissarlarının hücumlarının qarşısını almaq üçün Livanın sərhəd bölgələrində təhlükəsizlik zonası yaratmaq niyyəti barədə Pentaqonu xəbərdar edib. Bufer 10 km dərinlikdə olmalıdır. Buna cavab olaraq ABŞ prezidenti Cozef Baydenin administrasiyası müttəfiqindən diplomatiya üçün vaxt ayırmağı xahiş edib, lakin onun nümayəndələri bu münaqişənin Qəzza zolağı üzərində toqquşmaların miqyasını aşacağından ehtiyat edirlər. Amerika tərəfi İsraildən Livanla sərhəddə bufer zona yaratmağa hazır olduğu barədə siqnal alıb. Bu məlumatlara görə, müvafiq mövzu baş nazir Benyamin Netanyahu, müdafiə naziri Yoav Qalant və Pentaqon rəhbəri Lloyd Ostin arasında söhbətdə qaldırılıb.

İsrail hökuməti silahlıların sərhəd boyunca İsrailin yaşayış məntəqələrini atəşə tutmasının və ya HƏMAS-ın işğal ssenarisini təkrarlamasının qarşısını almaq üçün Hizbullah qüvvələrinin 10 km-dən uzağa çıxarılmasını ehtiva edən və ABŞ-ın vasitəçiliyi ilə Livanla razılaşmanın tərəfdarıdır.

Netanyahu və Gallant yaxın bir neçə həftə ərzində irəliləyiş görmək istədiklərini, lakin Ostin onlardan diplomatiya üçün vaxt buraxmalarını və bölgədə gərginliyi artıra biləcək addımlar atmamalarını istəyib. ABŞ tərəfi indi israr edir ki, İsrail Müdafiə Qüvvələri (IDF) daha çox quru qoşunlarından və daha az hava hücumundan istifadə edərək, Qəzza zolağında aşağı intensivlikli əməliyyatlara keçsin. Ağ Ev bu yolla mülki əhali arasında itkilərin sayını azaltmaq və humanitar yardımın həcmini artırmaq istəyir. Eyni zamanda, Pentaqon rəsmiləri açıq şəkildə vurğulayırlar ki, onlar quru əməliyyatının şərtləri və müddəti ilə bağlı İsrailə heç nə diktə edə bilməzlər.

Bu həftələrdə Hizbullah üzvləri İsrailin ən həssas bölgələrinə zərbələr endirməyə çalışırlar. Belə ki, bir gün əvvəl şiə qruplaşması İsrailin raketdən müdafiə sistemlərinin cəmləşdiyi mövqelərə ən azı iki hücum təşkil etdiyini bildirib. “İslam müqaviməti döyüşçüləri yəhudilərin Kapri qəsəbəsi yaxınlığında “Dəmir Günbəz” raketdən müdafiə sisteminin iki buraxılış meydançasına artilleriya zərbələri endiriblər”, - Hizbullah bildirib. “Hər iki obyektə ciddi ziyan dəyib”. Bununla bağlı ayrıca ”Allahın Partiyası” hücumların ”İsrailin Qəzza zolağında əməliyyat aparmasına qarşı çıxan Fələstin xalqı ilə həmrəylik əlaməti olaraq” başladığını qeyd edib.

Bundan əvvəl İsrail rəhbərliyi ölkə ərazisində hadisələrin təkrarlanmaması üçün Qəzza zolağının ərazisinə bufer zona konsepsiyasının tətbiqini təklif etmişdi. Yaxın Şərq ölkəsi Bayden administrasiyasına və ərəb dünyası ölkələrinə müvafiq ideya barədə məlumat verib, lakin onlara heç bir təfərrüat təqdim etməyib, bu da təşəbbüsün əsl məqsədi ilə bağlı xeyli şübhələr yaradıb. Bu və ya digər şəkildə, Qəzzada quru əməliyyatı və girovların axtarışı başa çatdıqdan sonra da Netanyahunun hərbi qüvvələrini Fələstin ərazisindən çıxara bilməyəcəyinə dair geniş fərziyyələr var. Anklavın bir növ yenidən işğalla üzləşməsi ilə bağlı qorxular Bayden administrasiyası daxilində fırlanır.

Amerika kəşfiyyat ictimaiyyətinə yaxın olan “Stratfor” analitik mərkəzinin araşdırmasında qeyd edildiyi kimi, Qəzza zolağında əsas hərbi əməliyyatlar başa çatana qədər İsrailin Livanda aktiv fəaliyyət göstərməsi ehtimalı azdır. ”Hətta belə olsa da, İsrail şimal sərhədində Hizbullah və Həmas ilə sabit əlaqələr qurmaq üçün gizli və ya məhdud eskalasiya və diplomatik təzyiqdən istifadə etməyə üstünlük verəcək”, - Stratfor bildirib. “Hərbilərin əhəmiyyətli hərbi təxribatlarına baxmayaraq, İsrail hazırda Qəzza zolağında böyük quru əməliyyatları davam etməklə, həddindən artıq gərginlik ərəfəsindədir”. Analitiklər hesab edirlər ki, Netanyahu hökuməti regionda müharibədən qaçmaq istəyir.

“Qismən və ya qeyri-rəsmi diplomatik razılaşma mümkün olsa da, Hizbullahın cənub sərhədindən geri çəkiləcəyi və ya İsrailin şimalına müstəqil hücumların qarşısını almaq üçün HƏMAS-a təzyiq göstərəcəyi ehtimalı azdır”, - Stratfor təhlilində deyilir. Bu o deməkdir ki, İsrail arabir hücumlara dözməli olacaq”. Hizbullah vəkilləri vasitəsilə münaqişənin qarşısını almaq üçün İsraillə dolayı əlaqə xətləri yaratmağa razı ola bilər və çox güman ki, başqa bir müharibənin qarşısını almaq üçün İsraillə nişanlanma qaydalarını yenidən müzakirə etmək üçün bir yol tapmağa açıq olacaq, lakin bu dinamika qeyri-sabit olacaq və əlavə təsirlərə məruz qalacaq.

Belə, tərəflər hələ də “müharibə atı”ndan düşmək istəmirlər, sona qədər, istəklərinə çatana kimi döyüşəcəklərində inadcıl görünürlər. Müharibəni sonlandıracaq işartıların olmaması, üstəlik proksi müharibə ustalarının məsələyə müdaxiləsi on illərlə davam edən münaqişəni bir az daha alovlandırır.

***V.VƏLİYEV***

# Uğurlu sosial islahatlar, vətəndaş rifahına xidmət edən inqilabi addımlar

*Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün də Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilən sosialyönümlü siyasət öz yüksək inkişaf mərhələsini yaşayır. Artıq Azərbaycan sosial islahatlar baxımından bir çox ölkələrə layiqli nümunədir. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin cari ilin yanvar ayının 5-də ”Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında” sərəncamı əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində əlavə tədbirləri özündə ehtiva edir.*



**İLHAM ƏLİYEV: “Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır”**

Bəli, iqtisadiyyatın sürətli inkişafı, möhkəm ictimai-siyasi sabitliyin təmin olunması, vətəndaşların sosial rifahının yüksəldilməsi ölkəmizdə daxili siyasətin mühüm uğurlu göstəriciləridir. Həyata keçirilən dövlət proqramlarının, çoxşaxəli islahatların real nəticəsi olaraq ölkə iqtisadiyyatı, xüsusən qeyri-neft sektoru sürətli inkişaf mərhələsinə qədəm qoyub, bütün kateqoriyalardan olan vətəndaşların əməkhaqları bir neçə dəfə artıb, iqtisadiyyata sərmayə yatırımı yüksəlib. Ölkənin iqtisadi potensialının tam hərəkətə gətirilməsinə nail olan Prezident İlham Əliyev Azərbaycanın gələcəyinin, ölkənin qüdrətinin məhz iqtisadiyyatdan asılı olduğunu hər zaman qeyd edir. Ölkəmizi yüksək nailiyyətlərə aparan iqtisadi inkişaf strategiyasını uğurla reallaşdıran dövlət başçısının fəaliyyətində sosial məsələlərə diqqət prioritet istiqamət təşkil edir. İldən-ilə inkişafda olan Azərbaycan iqtisadiyyatı bütün parametrləri ilə yanaşı, həm də xalqın sosial rifahının, güzəranının daha da yaxşılaşdırılması, sosial problemlərin həlli istiqamətində atılan addımların real nəticələri ilə müşayiət olunmaqdadır. Çünki ölkə iqtisadiyyatının ardıcıl və dinamik inkişafı, həyata keçirilən köklü dəyişikliklər iqtisadi sabitliyi təmin etməklə bərabər, dövlətin sosialyönümlü siyasətinin daha da gücləndirilməsinə geniş yol açıb, əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün möhkəm zəmin yaradıb. Bu baxımdan əhalinin aztəminatlı təbəqələrinə kömək göstərilməsi, bütövlükdə bütün kateqoriyalardan olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi Azərbaycanda dövlət siyasətinin başlıca istiqamətləri sayılır.

## “MƏN HƏR BİR AZƏRBAYCANLININ PREZİDENTİ OLACAĞAM” SÖYLƏDİ VƏ ARXASINDA BÖYÜK MƏNA VƏ MƏSULİYYƏT YÜKÜ OLAN BU FİKİRLƏRİ ÖZ PREZİDENTLİK FƏALİYYƏTİNDƏ DAİM TƏSDİQ ETDİ, ƏMƏLƏ ÇEVİRDİ VƏ DÖVLƏT İDARƏÇİLİYİNDƏ BİR MEYAR SƏVİYYƏSİNƏ YÜKSƏLTDİ

Müstəqil dövlətçiliyimizin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin siyasi idarəçilik məktəbinin layiqli davamçısı olan İlham Əliyev 2003-cü ilin oktyabrında keçirilən ilk prezidentlik inaqurasiyasında ”Mən hər bir azərbaycanlının prezidenti olacağam” söylədi və arxasında böyük məna və məsuliyyət yükü olan bu fikirləri öz prezidentlik fəaliyyətində daim təsdiq etdi, əmələ çevirdi və dövlət idarəçiliyində bir meyar səviyyəsinə yüksəltdi. Cənab İlham Əliyev Prezidenti olduğu hər bir vətəndaşın və bütövlükdə Azərbaycan xalqının əmin-amanlıq şəraitində, güvənli maddi təminat və sosial rifah içərisində yaşamağını istəyir və bu istəyi reallığa çevirmək üçün ən mütərəqqi proqramlar qəbul edir, ən mütərəqqi qərarlar, fərman və sərəncamlar verir, qanunlar imzalayır. Onun sosial siyasəti iki klassik prinsipə - sosial ədalət və sosial rifah prinsiplərinə əsaslanır. Prezidentin siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayanması ölkəmizdə milli iqtisadiyyatın dinamik artımı şəraitində sosial inkişafın davamlı xarakter almasına, sosial müdafiə və aktiv məşğulluq proqramlarının dəfələrlə genişlənməsinə, sosial sahədə vətəndaş rifahı və məmnunluğuna yönəlik mühüm irəliləyişlərə, sosial ödənişlərdə orta hesabla 10 -15 dəfə artımlara imkan verib.«Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır”, - deyə bəyan edən dövlət başçısının tapşırıqları əsasında xüsusilə son illər aparılan inqilabi sosial islahatlar ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm nailiyyətlərin əldə olunmasını təmin edib.

## BU SOSİAL İSLAHATLAR ZƏFƏR DÖVRÜNÜ YAŞAYAN QALİB AZƏRBAYCANDA BÖYÜK QAYIDIŞ PROQRAMININ REALLAŞDIRILDIĞI BİR DÖVRDƏ HƏYATA KEÇİRİLİR



Zəfər dövrünü yaşayan qalib Azərbaycanda müharibədən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial islahatlar əhalinin bu sahədə müdafiəsinin gücləndirilməsi və onun rifahının yaxşılaşdırılması məqsədi ilə nəzərdə tutulan tədbirləri uğurla reallaşdırır. Xüsusilə də son illərdə dünyada baş verən bahalaşma, qiymət artımlarının qlobal



iqtisadiyyata fəal şəkildə qoşulmuş Azərbaycana da təsirsiz ötüşmədiyi nəzərə alınmaqla respublika əhalisinin sosial müdafiəsinin gücləndirilməsi və rifahının bu təsirlərdən qorunması üçün zəruri və məqsədyönlü addımlar atılır. Bu sosial islahatlar Zəfər dövrünü yaşayan qalib Azərbaycanda Böyük Qayıdış Proqramının reallaşdırıldığı bir dövrdə həyata keçirilir. Xüsusilə də, dövlət başçısının göstərişi ilə şəhidlərimizin ailə üzvləri və müharibə iştirakçıları ilə bağlı çox geniş tədbirləri əhatə edən sosial dəstək paketi həmin insanların sosial təminat hüquqlarının operativ reallaşdırılması, onların sosial-psixoloji dəstəklə, reabilitasiya xidmətləri və vasitələri, birdəfəlik maddi yardımla təminatı, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, məşğulluq məsələlərinin operativ həlli, onlar üçün kiçik biznes imkanlarının yaradılması və s. kimi dəstək istiqamətlərini əhatə edir.



Sosial dəstək tədbirləri 121 min şəxsi əhatə edib, onlara dəstəkyönümlü 260 min xidmət göstərilib. O cümlədən 102 min şəxsə 114 min sosial ödəniş təyin olunub, 16,7 min şəxs üzrə birdəfəlik ödəmə, 2,8 min şəxsə sığorta ödənişi verilib, təqaüd və müavinətlər orta hesabla 60 faiz artırılıb. 11 min şəxsə 36 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. 1 766 şəxs 30 min reabilitasiya vasitəsi, 379 şəxs 394 son nəsil müasir protezlə təmin olunub. 16,4 min şəxs aktiv məşğulluq, o cümlədən 9,4 min şəxs özünüməşğulluq proqramlarına cəlb olunub. Vahid əlaqələndirmə mərkəzlərində 70 minə yaxın şəxsə xidmətlər göstərilib.

## ŞƏHİD AİLƏLƏRİNİN SOSİAL TƏMİNATI DA YAXŞILAŞIR. BİZ DAİM ONLARI DİQQƏT MƏRKƏZİNDƏ SAXLAYACAĞIQ

Prezident İlham Əliyevin uğurlu sosial siyasətində şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial təminatı, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması mühüm yer tutur. «Şəhid ailələrinin sosial təminatı da yaxşılaşır. Onlara nəzərdə tutulmuş müavinətlərin məbləği müntəzəm olaraq artırılır. Biz daim onları diqqət mərkəzində saxlayacağıq»,- qeyd edən Prezident İlham Əliyevin imzaladığı sənədlər nəticəsində şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial ödənişləri təkcə son 4 ildə 2 dəfədən çox artırılıb. Eyni zamanda, bu dövrdə şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib. Postmüharibə dövründə onlara 4300, ümumilikdə ötən dövrdə 13,1 min mənzil və fərdi ev təqdim edilib. 2022-ci il üzrə də 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub ki, artıq 1300-ü təqdim edilib. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin rifahına yönələn proqramlardan biri də onların avtomobillə təminatıdır. Postmüharibə dövründə bu istiqamətdə də tədbirlər geniş miqyas alıb, eyni zamanda, 44 günlük Vətən müharibəsində yaralanaraq əlilliyi müəyyən olunmuş hərbçilərimiz də avtomobillə təmin edilirlər. 44 günlük Vətən müharibəsindən sonra 304, ümumən ötən dövrdə 7500-dən artıq avtomobil müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə verilib.

Dövlət başçısının şəhid ailələri və müharibə iştirakçılarına diqqət və qayğısının daha bir təzahürü kimi, son illər həmin kateqoriyalarla bağlı növbəti sosial dəstək proqramları icra olunub: 2019-2020-ci illərdə 1997-ci il avqustun 2-dək olan dövr üzrə şəhid hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının vərəsələri birdəfəlik ödəmə ilə təmin edilib. Bir sözlə, bütün bu addımlar Prezident İlham Əliyevin ardıcıllıqla həyata keçirdiyi güclü sosial siyasətin əsasında məhz vətəndaş amilinin, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir. Azərbaycan özünün dərinməzmunlu sosial siyasətinə bundan sonra da sadiq qalacaq. Çıxışlarında da bunu nəzərə çatdıran Prezident İlham Əliyev bildirir: «Biz bundan sonra da sosial sahəyə çox böyük diqqət göstərəcəyik. Çünki bu sahə hər bir ölkə üçün prioritet olmalıdır, o cümlədən bizim üçün. Baxmayaraq ki, son illər ərzində dəfələrlə maaşlar və pensiyalar artırılıb, biz bundan sonra da bu istiqamətdə addımlar atacağıq. Bu yaxınlarda çox böyük sosial paket qəbul edildi. Bu islahatların anonsu keçənilki prezident seçkilərindən sonra verilmişdir. Bu ilin əvvəlindən çox ciddi sosial təşəbbüs icra edilməyə başlamışdır. Qəbul edilmiş qərarlar üç milyon insanı əhatə edir və bu vətəndaşların maddi vəziyyəti yaxşılaşır». Beləliklə, Prezident İlham Əliyevin vətəndaşlarımızın sosial rifahının yüksəldilməsinə, ölkəmizin daha da inkişafına xidmət edən sərəncamları, fərman və qərarları reallaşdırılan böyük sosial islahatlar paketinin tərkib hissəsidir. Və xalqımız inanır ki, bu gün tarixi qələbəmizi reallaşdıran Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu sosial islahatlar proqramı qarşıdakı dövrdə də əmək, məşğulluq, sosial müdafiə sahələrində yeni mühüm irəliləyişlərə nail olunmasını təmin edəcək, dövlətimizi daha firavan gələcəyə aparacaq.

**RƏFİQƏ KAMALQIZI**






# Jurnalist ölür, müəllim kökəlir, məmur şəkər olur

***Hər peşənin çətinliyi var, çünki heç bir iş zəhmətsiz deyil. Texnologiyanın əsrimizdəki üstünlüyü, inkişafı bəzi peşələrdə ağır işləri yüngülləşdirsə də, əvəzində bir çox problemlər yaradır. Məsələn, əvvəllər fabrik və zavodlarda insanların gördüyü işi indi texnika görür, hərəkətsiz qalan insan isə bir neçə xəstəliklə mübarizə aparmalı olur. O cümlədən, çox danışmaq məcburiyyətində olduğu üçün indi müəllimlərdə xroniki faringit, laringit, səs teli problemləri kimi xəstəliklər, daim oturaq işlədiyi üçün çəki problemləri yaranır.***

### Müəllimlər, həkimlər niyə kökəlir?

İş stresi, yüksək məsuliyyət, hədsiz rəqabət və hədəfə çatmaq kimi bir çox məsuliyyəti olan peşələrdə ürək, qan-damar xəstəliklərinə çox rast gəlinirsə ofis şəraitində, iş masasının arxasında ömrü keçən işçilərdə mədə və bağırsaq xəstəlikləri müşahidə edilir, növbəli işləyən işçilərdə isə hormonal pozğunluqlar yaranır.

Bank işçilərinin, vəkillərin, həkim və tibb bacılarının, müəllimlərin ortaq xəstəliyi stress, qeyri-normal qidalanma və hərəkətsizlikdir. Diqqət etsəniz bir çox müəllimin, həkimin artıq çəkisinin olduğunu görərsiniz. Bu isə, öz növbəsində, qan təzyiqinin yüksək olması, qan-damar xəstəlikləri, mədə problemlərində səbəb olur.

Müəllimlər böyük bir kollektivdə işlədikləri üçün nəfəs yolu ilə yoluxan xəstəliklərdən daha çox əziyyət çəkirlər. Həmişə danışmaq məcburiyyətində olan bu peşə sahiblərində səs telləri və boğaz xəstəliklərinə çox rast gəlinir. Həkim Sabir Əliyev deyir ki, müəllimlərdən başqa müğənnilər də bu problemdən əziyyət çəkir, çünki onlar da daima danışmaq və oxumaq məcburiyyətindədir: “Müəllimlərin istifadə etdiyi ənənəvi tabaşir də allergik reaksiyalar yarada bilir. Allergik qrip, xroniki faringit üçün tabaşir təhlükəlidir. Tabaşir tozu burun və ağız vasitəsi ilə daxilə nüfuz etdiyi üçün allergik reaksiyalar yarada bilir. Məktəblərin açıldığı ay bu problemlə müraciət edən müəllim pasiyentimiz çox olur. Amma müşahidələrimə görə məktəblərdə müasir tipli yazı lövhələrinə keçilməsi, tabaşir yerinə markerlə yazılması bu allergiyanı azaldır”.





### İş stresi psixi xəstəliklərə səbəb olur

Bank, mühafizə, yüksək səlahiyyətli dövlət işi kimi sahələrə cavabdeh yüksək çinli idarə işçilərinin işdən sonra əlavə işə görə gecə saatlarınadək işləməsi onlara sağlamlıqları bahasına başa gəlir. Əsasən də, dövlət müəssisələrində əlavə işə qalan işçilər özlərini narahat, bədbəxt hiss edir, həmişə təşviş içində olmaları onların xroniki əsəb xəstəsi olmasına səbəb olur. Bununla bərabər diqqətsizlik, həmişə yorğunolma iş əmsalını azaldır.

Üzərində iş məsuliyyəti yüksək olan şəxslərdə daha çox rastlanan psixi problemlər getdikcə artır. Həkim Sülhiyyə Mürsəlova deyir ki, stes orqanizmin xəstəliklərə olan immunitetini qırdığı üçün bu insanlarda xəstəlik çox tez özünü büruzə verir: “Psixi problemlər, allergik xəstəliklər, xərçəng, mədə xorası, bağırsaq problemləri onlarda çox rast gəldiyimiz xəstəliklərdir. Bir pasiyentim vardı, mühasib idi, böyük bir müəssisənin mühasibat işlərinə cavabdeh idi, hər ayın sonu bütün bədəni səpirdi. İşində nöqsan tapılacağından, pulun əksik olacağından qorxurdu”.

Həkim deyir ki, oturaq işdə işləyənlərin ən böyük problemləri isə maddələr mübadiləsinin pozulması, əzələ-skelet anormallıqları, mədə yaraları kimi problemlərdir. Onun sözlərinə görə yüksək səlahiyyəti olan idarəçilər, hədsiz stres və məsuliyyət səbəbi ilə infarkt riski ilə üzləşirlər: “Araşdırsaq şahidi olarsınız ki, bütün yüksək vəzifəsi olan insanlar ürək və ya təzyiq həbi atırlar. Hər an stres altında olurlar, narahat həyatları olur, məsuliyyət daşıdıqları sahədə hansısa bir problemin ola biləcəyi ehtimalı belə onlara rahatlıq vermir. Bu cür insanlarda ürək xəstəlikləri, yuxu pozğunluqları, yüksək qan təzyiqi, şəkərli diabet çox rastlanır”.

### Günəşi görməyənlər çoxalır

İnsan orqanizmi günəş işığına görə qurulub, insan günəşlə oyanıb işə başlamalı, işini gün batanadək bitirib günəş batınca dincəlməlidir. Günəş çıxanda gecə növbəsini bitirib yatmağa hazırlaşan insanlarda ciddi hormonal pozuqluqlar olur. Həkim Sülhiyyə Mürsəlova deyir ki, gecə növbəsi olan peşələrdə menstral pozuqluqlar, piylənmə, yaddaş pozulması, diqqətsizlik müşahidə edilir: “Bir çox vacib hormonlar var ki, biz yuxuda olarkən fəaliyyətdə olur. Bu hormonlar qaranlıqda fəaliyyət göstərirlər, yuxu zamanı gündüz saatlarına düşürsə o zaman o hormonların fəaliyyəti pozulur. Ən sağlam yuxu günəş çıxmazdan 4 saat əvvəl olan yuxudur. Bioloji quruluşumuz buna görə qurulub. Əgər bu saatları yuxuda keçirməsək hormonal problemlər hormonal balansı pozduğu kimi iştahı, psixologiyanı da dağıdır. Normal yuxu saatı 23.00-05.00 arasında olur, bu müddəti yatmayan peşə sahibləri ciddi problemlərlə rastlaşır”.

Bank və birja işçiləri daha az günəşi gördükləri, səs-küylü, narahatedici vəziyyətlərdə işlədikləri üçün xəstəlik riskləri də yüksəkdir. Həkim Sabir Əliyevin sözlərinə görə, bank işçiləri daha çox ürək xəstəliklərindən əziyyət çəkir: “Təsəvvür edin, hər gün milyonlarla pul əllərindən gəlib gedir, üstəlik bu pul bəzən elə adamların pulu olur ki, savad, zəka baxımından özü ilə müqayisə edir və ona ağır gəlir, özünün problemlərini düşünür və axırı da ürək xəstəliyi, infarkt olur. Bir çox bank işçisi isə ay sonunda kəsirinin çıxacağından qorxur, bu qorxu yuxusunu pozur, iştahını kəsir”.



### Jurnalistlərin xəstəliyi – səs-küy, qaçaqaç və stres

Jurnalistlərin əksəriyyəti, daha dəqiq desək, gündəmlə işləyən və cinayət-məhkəmə prosedurlarından yazan jurnalistlər stresdən əziyyət çəkir. Hər an nəyinsə baş verəcəyini gözləyən, gündəmin xəbərini hazırlayan, daim qaçhaqaç, qovhaqovda olan bu insanlar vaxtında qidalanmadıqları üçün ən çox mədə narahatlıqlarından əziyyət çəkirlər. Kompyuter arxasında “fast-food”la qidalanan həmkarlarım gənc yaşda mədə xorası, bağırsaq yaraları ilə üzləşirlər. Bundan əlavə həddindən artıq kofe içən, siqaret çəkən bir çox jurnalist qan-damar problemlərindən və ürək xəstəliklərindən əziyyət çəkir. Kofeinin ifrat qəbulu bir çox xəstəliklərə də təkan verir.

Redaksiyalardakı səs-küy də stres yaradan səbəblərdəndir. Əvvəllər redaksiya işçilərinin hər birinin öz otağı, sakit iş mühiti vardı, amma son illər açıq ofis quruluşu insanları daha çox sıxır, çünki biri digərinin işinə mane olur. Açıq ofis şəraitində işləyən jurnalistlərdən biri telefonla müsahibinin səsini diktafona yazır, bu proses minimum 20-30 dəqiqə çəkir. Bu müddət ərzində redaksiyada olan digər jurnalistlərin diqqəti yayınır, iş qabiliyyəti azalır. Gurultulu, səs-küylü mühitdə işləyənlər arasında xüsusilə qadınlar narahat olur, əsəb problemləri, depressiv vəziyyət ürək döyüntüsünün sürətlənməsinə, təzyiqin qalxmasına səbəb olur.

### Özünüzə peşə seçəndə iki dəfə düşünün

Ürək, qan-damar xəstəliklərinin ən çox rast gəlindiyi peşələrdən biri də tibb sahəsidir. Başqalarına şəfa paylayanların özləri, xüsusilə də cərrahlar bu riski daşıyır. Günün bir çox saatını ayaqüstə olduqları üçün varikoz problemi də yaşayırlar. Varikozdan tək cərrahlar yox, ayaqüstə çox qalan poçtalyon, müəllim, diş həkimi, saç ustaları da əziyyət çəkir. Bu xəstəlik onların peşəsinin ayrılmaz hissəsinə çevrilir.

Həkim və tibb bacıları isə, əsasən, yoluxucu xəstəliklərdən əziyyət çəkir, səbəbi də gün ərzində yüzlərlə xəstə ilə təmasda olmalarıdır. Gecə növbəsində işləyən həkim və tibb bacıları isə hormonal pozuqluqlardan əziyyət çəkir.

Təmir-tikinti ilə məşğul olan ustaların əksəriyyəti ağciyər problemləri ilə üzləşir, səbəbi də tikintidə istifadə edilən kimyəvi materiallarla tənəffüs etmələridir. Bu siyahıya laboratoriyada təhlükəli kimyəvi maddələrlə təmasa məruz qalanlar, habelə mədən işçiləri də daxildir. Bundan əlavə, restoranlarda işləyən ofisiantlar və çalğıçılar hər gün yüksək dessibilli səsə məruz qaldıqları üçün eşitmə və əsəb sistemlərində ciddi problemlər olur.

“İş insanın cövhəridir” deyiblər, amma peşə seçərkən onun səhhətinizə, orqanizminizə cövhər, yoxsa zərər olduğu barədə də düşünməkdə fayda var. Yoxsa sevdiyiniz peşə qazandığınız xəstəliklərə görə gözünüzdən düşə bilər.

***Lalə Mehralı***

# Əli Kərimli erməni arxiyepiskopu kimi çağırışlar edir

**Son 20 ildə Azərbaycanın bütün sahələrdə əldə etdiyi möhtəşəm uğurlar dünyanın bəzi aparıcı dövlətlərini, nüfuzlu beynəlxalq təşkilatlarını təəccübləndirir və gözlənildiyi kimi narahat edir. Çünki Azərbaycanın regionun lider dövləti olması və müəyyən məsələlərdə diktə edən dövlətə çevrilməsi böyük güclərin maraqlarına cavab vermir.**

*"Yurd" şefinin beynəlxalq təşkilatları Azərbaycana qarşı sanksiyalar tətbiq etməyə çağırması onun revanşistlərdən fərqlənmədiyini göstərir*

Xüsusilə də, Azərbaycanın cəmi 44 gün çəkən Vətən Müharibəsi ilə 30 il erməni işğalı altında olmuş torpaqlarını azad etməsi bəşəriyyət tarixinin görünməmiş hərbi qələbəsi kimi qiymətləndirilib, heyranlıqla öyrənilir. Təbii ki, parlaq hərbi, siyasi, diplomatik qələbələrin əldə edilməsi, Müzəffər Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin liderlik bacarığının, müdrik idaretmə qabiliyyətinin, bənzərsiz siyasi- diplomatik məharətinin nəticəsidir. Əsrlər keçəcək və gələcək nəsillər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun düşmən üzərində qələbə çalaraq tarixi nailiyyətə imza atmasını dönə-dönə oxuyacaq, araşdıracaq və təbliğ edəcəklər. Məlumdur ki, Vətən Müharibəsində 300-dən çox şəhər və kənd döyüş meydanında işğaldan azad edildi. Düşmən ağ bayraq qaldırdı, təslim oldu və məcbur oldu ki, noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atsın. Bunun nəticəsində yüzlərlə şəhər və kənd bir güllə atmadan, bir şəhid vermədən geri qaytarıldı. Ölkənin 30 ilə yaxındır ki, pozulmuş ərazi bütövlüyünün bərpası və xalqımızın mədəniyyət beşiyi hesab olunan Şuşanın azad olunması Prezident İlham Əliyevin Zəfər zirvəsidir.

### Dağıdıcı müxalifət sağlam rəqabətdən yayınıb təxribatlara üstünlük verir

Söz yox ki, qədirbilən Azərbaycan xalqı Yenilməz Sərkərdə, Prezident İlham Əliyevin xidmətlərini böyük ehtiramla dəyərləndirir, aparılan daxili və xarici siyasətə birmənalı dəstək göstərir. Mövcud reallıqlara və çağırışlara əsasən tam əminliklə və qətiyyətlə demək olar ki, 7 fevral



2024-cü ildə keçiriləcək növbədənkənar prezident seçkilərində yeddidən yetmiş yeddiyə qədər hər kəs Ali Baş Komandan İlham Əliyevi dəstəkləyəcək. Bununla da xalq bir daha öz liderinə öz təşəkkürünü ifadə etmiş olacaq. Xalqın mövqeyinin dəyişməz olduğunu anlayan dağıdıcı ünsürlər, xüsusilə də, Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı və digərləri müxtəlif təxribatlar planlaşdırmaqla cəmiyyətdə gərginlik yaratmağa cəhd edirlər. Hətta bu məqsədlə seçkiləri boykot etmək barədə anormal qərar qəbul ediblər. Halbuki, hər bir siyasi partiyanın başlıca məqsədi və hədəfi seçkilərdə iştirak etməkdir. Əgər yaranan imkandan istifadə edilmirsə, deməli, o siyasi təşkilat acizliyini və məğlubiyyətini etiraf edir. Görünən isə ondan ibarətdir ki. Ə.Kərimli, C.Həsənli, A.Hacılı acizliklərini dilə gətirməyə cəsarət etmirlər. Bu da xarici qüvvələr tərəfindən heç də yaxşı qarşılanmayacağı ilə bağlıdır. Radikallar anlayırlar ki, məğlubiyyətlərini etiraf edəcəkləri təqdirdə, maddi və mənəvi dəstək aldıqları xarici dairələrlə aralarında dərin uçurum yaranacaq. Ona görə də problemdən qaçmaq üçün "vaxt azdır", "şərait yoxdur" və bu kimi digər bəhanələrlə çıxış edirlər. Hətta ağalarına xoş gəlmək üçün fevral ayında ölkədə etiraz aksiyaları keçirəcəklərini bəyan edirlər. Radikallar düşünürlər ki, bu yolla siyasi sabitliyə xələl gətirməyi bacaracaqlar. Bu məsələ xarici məkrli dairələrin maraqlarına cavab verdiyindən susmağa üstünlük verirlər. Yəni, dolayısı ilə radikalların mövqeyinə dəstək nümayiş etdirirlər. Siyasi sabitliyi pozmaq və ölkənin daxili məsələlərinə müdaxilə etmək arzusunda olan xarici qüvvələr seçki prosesini təxribatlar üçün "universal" fürsət yaradan amil kimi dəyərləndirir.

### Boykot demaqoqların mənəvi məğlubiyyətidir

Radikal təfəkkürün əsasında yalnız xarici məkrli dairələrin maraqlarına xidmət etmək və qrant layihələrindən faydalanaraq cəmiyyətdə ixtilaf yaratmaq kimi xain amillər dayanır. Əgər belə olmasa idi, Ə.Kərimli bəyanat yayaraq beynəlxalq təşkilatları Azərbaycana qarşı sanksiya tətbiq etməyə çağırmazdı. Fikir verin, Ermənistandakı revanşistlər, o cümlədən erməni arxiyepiskopu, Fransadakı makronçular, ABŞ-dakı ermənipərəst konqresmenlər və digər qüvvələr Azərbaycana sanksiyaların tətbiq olunması çağırışları ilə çıxış edirlər, eyni mövqeyi Azərbaycanda doğulub çörəyini yeyib, suyunu içən Ə.Kərimli də sərgiləyir. Sual yaranır, niyə Ə.Kərimli erməni arxiyepiskopu kimi düşünür və çağırış edir? Nədən "Yurd" şefi Azərbaycan dövlətinə və xalqına qarşı düşmən mövqe sərgiləyir? Pul, mənəvi dəstək bu qədərmi qiymətlidir? Ola bilər, radikallar pul-para əldə etsinlər, lakin heç bir halda cəmiyyətin inkişafına və milli həmrəyliyə zərər verə biləcək əməllərə nail ola bilməyəcəklər. Bütün dövrlərdə, o cümlədən Vətən Müharibəsi dövründə sübuta yetirildi ki, xalq ən çətin məqamda öz lideri ətrafında daha sıx birləşir, Onun siyasətini daha böyük qətiyyətlə və əzmlə müdafiə edir. Ona görə də, xarici qüvvələrə arxalanıb, pozuculuq aktları planlaşdırmağa hazırlaşan dağıdıcı müxalifətə ən layiqli cavabı elə xalq verəcək.

**İLHAM ƏLİYEV**

---

# İrəvanla Bakı arasında sənəd imzalansa belə...

*Anna Qriqoryan: "Azərbaycan bizim starteji ərazilərimizə nəzarət edir"*

İrəvanın Bakı ilə sülhə hazır olmaması artıq fakt olaraq qalmaqdadır. Bunu Ermənistanın iqtidar və müxalifət nümayəndələri də etiraf edirlər. Belə ki, Ermənistan parlamentinin müxalifətdən olan deputatı Anna Qriqoryanın dediyinə görə, İrəvanla Bakı arasında sənəd imzalansa belə, bu, sülh müqaviləsi deyil, mövcud vəziyyəti düzəltmək üçün razılaşma olacaq: "Bakı qoşunları geri çəkməyəcək və bu, o deməkdir ki, Azərbaycan bizim üçün strateji əhəmiyyət kəsb edən yollara nəzarəti davam etdirəcək. Dünən Azərbaycan hakimiyyəti bəyan edib ki, sərhədlərin demarkasiyası və delimitasiyası məsələsi sülh müqaviləsinin mətnindən çıxarılmalıdır. Amma bu, Ermənistan üçün əsas məsələdir. Çünki məhz bu, Azərbaycan qoşunlarının





Ermənistanın suveren ərazisindən çıxarılması üçün hüquqi baza yaradır. Bütün bunlarda Paşinyan üçün yeganə vacib olan odur ki, o, Ermənistanın güzəştləri ilə bağlı sənədi sülh müqaviləsi kimi ictimaiyyətə təqdim edə bilsin".

Bu arada, Rusiyadan olan şərhçi də qeyd edib ki, professor Ojarovski ilginc fikirlər səsləndirib. Onun sözlərinə görə, Ermənistan indi düz yolda deyil. O, enerji məsələsinə toxunub: "Onun tutduğu yol cəngəlliklər yoludur. Ermənistan indi qonşu Azərbaycandan nümunə götürərək bərpa olunan enerjini inkişaf etdirməyə çalışmalıdır. Bu, düşünülmüş həll tələb edən spesifik yanaşmadır. Məsələn, dağlıq mənzərəsi ilə Ermənistan üçün günəş və külək enerjisi ən uyğun ola bilər. Ermənistanda külək enerjisi çox azdır, lakin onun imkanlarını genişləndirmək olar. Yeri gəlmişkən, xatırlatmaq istərdim ki, bu yaxınlarda COP28 konfransında bir çox ölkələr 2030-cu ilə qədər günəş enerjisi imkanlarını üç dəfə artırmaq qərarına gəliblər. Hesab edirəm ki, Ermənistanın seçimi hələ də bərpa olunan enerji mənbələrinin xeyrinə olmalıdır. Metsamor atom elektrik stansiyası zəlzələyə meyilli ərazidə yüksək hündürlükdə yerləşən stansiyadır və nüvə ilə çirklənmə təhlükəsi yüksək olduğundan bu, region üçün təhlükələri xeyli azaldacaq. Əslində, bu, 60-cı illərdə hazırlanmış köhnə sovet dəmiridir, burada radioaktiv zonanın qoruyucu təbəqəsi yoxdur. Bütün bunlar qəzanın mümkün nəticələrini ağırlaşdırmağa gətirib çıxara bilər. Ermənistandakı AES Çernobıldan əvvəlki dövrlərə aid texnologiya ilə inşa edilib".

**Afət Tahirqızı**

---



Mətanət Məmmədova

# 365-in ən uzun gecəsi, həm də Çilləsi...

***Dekabrın 20, 21-dir bu gecə. Payızın üzərində hökmranlığa keçən qışın gəlişi ilə özünü göstərməsidir. Və təbiətin özü üçün qurduğu planlardan biridir. Bu plana əsasən 21 martda gün-gündüz bərabərliyi yaranır. Gecə ilə gündüz bərabərləşir, şimal yarımkürəsində yaz, cənub yarımkürəsində isə payız başlayır.***

21 iyun yay gündönümü baş verir. Bu, ilin ən uzun gündüzünün və ən qısa gecəsinin baş verdiyi vaxtdır. Başqa bir adı Yaz gündönümüdür. Şimal yarımkürəsində yay başlasa da, cənub yarımkürəsində qış başlayır.

23 sentyabr gündüz bərabərliyi yaranır. Gecə ilə gündüz bərabərləşir. Şimal yarımkürəsində yay bitir, payız başlayır. Cənub yarımkürəsində yaza keçid olur.

21 dekabrda isə qış gündönümü deyilən an şimal yarımkürəsində günlər uzanmağa, cənub yarımkürəsində isə qısalmağa başlayır. Bəzi ölkələrdə bu tarix şimal yarımkürəsində qışın, cənub yarımkürəsində yazın başlanğıcı hesab olunur. Ancaq bəzi ölkələrdə yay və ya qışın ortası hesab olunur. Ən uzun gün cənub yarımkürəsində, ən uzun gecə isə şimal yarımkürəsində yaşanır.

Beləliklə, 21 dekabr gecəsi ömrümüzə qış fəslini gətirməklə, həm də gecə-gündüz bərabərliyini yaradıb, daha sonra günlərin uzanması, gecələrin qısalması ilə davam edir. Xalqımız qış fəslini xalq təqviminə uyğun olaraq, "çillə" adı ilə üç yerə bölüb. Bunlardan böyük çillə 40 gün (21 dekabr - 30 yanvar), kiçik çillə 20 gün (31 yanvar - 20 fevral), ala çillə və ya ala çolpav (boz ay da deyilir) isə bir ay (20 fevral - 20 mart) davam edir.

Qışın daxil olduğu gün ölkəmizdə, hətta Cənubi Azərbaycan, İran, Əfqanıstan və bir çox yerlərdə hər il dekabrın 20, ya da 21-də Çillə mərasimləri ilə qeyd olunur.

Bu mərasimdə hökmən qarpız kəsilməlidir. Buna Çillə qarpızı deyirlər. Etnoqrafların söylədiyinə görə, Çillə qarpızına bolluq, bərəkət rəmzi kimi baxılır. Çillə gecəsində qarpız kəsmək qışı xoş qarşılamaqla bərabər, ondan qorxmamağa işarədir.

Çillədə qarpız kəsəndə deyərlər ki, "ay qarpız, mən səni necə kəsirəmsə, çilləni də belə tez kəsim". Yəni qışa, şaxtaya yenilməyim, onu dərdsiz, bəlasız başa vurum. Naxçıvanda yaşlı insanların dediklərinə görə, çillədə qarpız kəsilir ki, günümüz qırmızı, yəni günəşli olsun.

Çillə qarpızı kəsilən vaxt xalq arasında niyyətetmə adəti də icra olunur. Bu zaman qarpızın baş tərəfini kəsərək dörd yerə ayırıb atırlar. Əgər hissələrdən ikisi eyni tərəfi üstə düşərsə, niyyət qəbul edilmiş sayılır. Bu da belə bir fikir söyləməyə əsas verir ki, çillə gecəsi qarpızın qabığının bir hissəsinin dörd yerə bölünüb niyyət tutub atılması, bəlkə də, dörd fəsillə, atılan qarpız qabıqlarının rənglərinə uyğun (ağ və yaşıl) niyyətin qəbul olması isə fəsillərin əlamətləri ilə əlaqədardır.

Çillədə qarpız olmadıqda belə, başqa bir meyvə kəsilməlidir. Xalq arasındakı inanca görə, kim bu gecə çoxlu meyvə yesə, o, bütün qışı xəstələnməz.

Xalq təqvimindən irəli gələn Çillə bayramında həm də nişanlı, yeni ailə quran qızlara xonçalar aparılar və həmin xonçada hökmən qarpız olar.

Beləliklə, Çillə bayramımız mübarək olsun. Qoy qarşıdan gələn qış qarı, soyuğu ilə yanaşı, həm də qarpızın içi rəngdə günəş də doğursun ki, soyuğu onun istisi ilə azacıq da olsa, dəf edə bilək. Çünki qış gəldi-gedərdir, Günəş isə daimi, həm də bütün fəsillərin gözəlliyidir..

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti çərçivəsində hazırlanıb.*

# “İrəvan üçün Bakı ilə sülh bağlanmasından başqa xilas yolu yoxdur”



***Azərbaycan Ermənistanla sülh bağlamaqda qərarlıdır. Bunu bazar ertəsi Moskvada MDB Hökumət Başçıları Şurasının iclasında çıxışı zamanı Baş Nazir Əli Əsədov deyib. “Mən Azərbaycanın regionda sülh və təhlükəsizliyin möhkəmləndirilməsi istiqamətində səylərini davam etdirmək əzmində olduğunu bildirmək istərdim. Son zamanlar müsbət siqnalları nəzərə alaraq, biz bu istiqamətdə konstruktiv dialoqun davam etdirilməsini son dərəcə vacib hesab edirik”.***

O. Əsədov qeyd edib ki, mövcud tarixi fürsət regionda çoxdan gözlənilən sülhün bağlanmasına imkan verəcək. Onun sözlərinə görə, bu, Cənubi Qafqazın bütün xalqlarına sülh və təhlükəsiz birgə yaşayışa ümid verəcək.

Maraqlıdır ki, bu yaxınlarda bəzi şərhçilər Azərbaycanın sülh sazişi bağlamağa razılıq verməyəcəyini və Ermənistanla az qala növbəti müharibəyə hazırlaşdığını, guya ona qarşı hansısa ərazi iddialarının olduğunu proqnozlaşdırırdılar. İndi isə ölkənin yüksək vəzifəli şəxsləri sülhə imza atmaq niyyətlərini ictimai müstəvidə israrla təkrarlamağa başlayanda bu səslər nəzərəçarpacaq dərəcədə sönüb. İndi sual olunur ki, Ermənistan rəhbərliyi buna nə dərəcədə hazırdır?

Bir tərəfdən, görünən odur ki, baş nazir Nikol Paşinyan özü də Azərbaycanla müqavilə bağlamaq niyyətində olduğunu göstərir, lakin onun komandasının bəzi üzvləri (o cümlədən xarici işlər naziri Ararat Mirzoyan) buna o qədər də diqqət ayırmır və görünür ki, hər fürsətdə Azərbaycanı təcavüzdə, “soyqırımda”, “etnik təmizləmədə” və s. Ittiham edir. Hansı ki, bu, tərəflər arasında çoxdan gözlənilən sülhün bərqərar olmasına heç bir şəkildə kömək etmir. Ermənistanın hakim dairələrinin mövqeyində bu ikililiyin səbəbi nə ola bilər? Bu, məhsuldar görünən ikitərəfli dialoqun pozulmasına gətirib çıxarmayacaqmı?

Bununla bağlı xarici müşahidəçilər “Caliber” analitik mərkəzinə fikirlərini bölüşüblər. Ekspertlərin şərhlərini oxucularımıza təqdim edirik.



“**Ukrayna Prizması” Xarici Siyasət Şurasının eksperti Oleksandr Krayevin** fikrincə, sülh müqaviləsi məsələsinə bu cür fərqli münasibət Paşinyanın, çoxlarının xatırladığı kimi, vaxtilə kifayət qədər qeyri-populyar olması ilə olub-olmadığına qərar verə bilmədi və buna görə də, əslində, həm müharibə ideyasını dəstəkləyənləri, həm də sülh istəyən müharibəni dəstəkləməyənləri qəzəbləndirə bildi. İndi isə özünə dayaq tapa bilmir”,- politoloq deyir.

Müvafiq olaraq, Paşinyan məqsədini müəyyən sazişlər bağlamağa və danışıqlar aparmağa qoyan-



izah edilə bilər.

“Yəni, Ermənistan cəmiyyətində qütbləşmə ona görə baş verib ki, Paşinyanın həm müharibə tərəfdarı, həm də müharibə əleyhinə hərəkətləri Ermənistan əhalisinin yarısı (və müvafiq olaraq siyasi düşərgənin yarısı) tərəfindən kəskin mənfi qarşılanıb. O, ərazilər uğrunda sona qədər döyüşməyə hazır olub-olmadığına, yoxsa təslim olmağa və danışıqlara hazır da onun çevrəsində hələ də bu ehtimala müqavimət göstərmək istəyən kifayət qədər əleyhdarları var,- ekspert qeyd edir.

“Bu, onu deməyə əsas verir ki, əgər onlar hərbçilər arasında və ya prinsipcə, Nazirlər Kabineti daxilində kifayət qədər böyük dəstək qazana bilsələr, o zaman Paşinyanın konstruktiv dialoqa girməsi üçün istənilən fürsət sadəcə olaraq uğursuzluğa düçar ola bilər.

Bunun Ermənistan üçün sərfəli olub-olmadığını söyləmək çətindir. Lakin hələlik onlar ərazi uğrunda yenidən döyüşməyə, münaqişənin potensial yeni raundunun baş verəcəyi təqdirdə ərazilərini



müdafiə etməyə hazır olmadığı aydındır. Ona görə də Paşinyan indi nəyin bahasına olursa-olsun, öz ətrafında danışıqlara hazır olan insanları birləşdirməli və onlarla birlikdə bu gündəliyi həyata keçirməyə çalışmalıdır”,- Kraev hesab edir.

**Rusiyalı politoloq, iqtisad elmləri doktoru, Sankt-Peterburq Dövlət Universitetinin professoru Stanislav Tkaçenko** öz növbəsində bildirib ki, Ermənistan rəhbərliyinin Azərbaycanla sülh müqaviləsi bağlamaq məsələsində vahid yanaşması olmadığına görə, İrəvanın siyasətinə və danışıqlar strategiyasına vahid qiymət vermək asan deyil.

“Bir tərəfdən, istənilən sülh müqaviləsi uzunmüddətli silahlı münaqişənin üstündən xətt çəkəcək və Ermənistan vətəndaşlarına hakimiyyətə sual vermək imkanı verəcək: işğalın əsas elementinə çevrilən Qarabağ necə oldu? İrəvanın müdafiəsini ən yüksək prioritet elan etdiyi ərazini Ermənistan hələ Azərbaycan Silahlı Qüvvələri oraya daxil olmamışdan əvvəl diplomatik baxımdan itirdi? Bunun günahkarı kimdir, məsuliyyəti kim daşımalıdır- əvvəl siyasi, sonra cinayət məsuliyyəti? Bu sualların veriləcəyi anı mümkün qədər ləngitmək indiki İrəvan rəhbərliyinin maraqlarına uyğundur.

Digər tərəfdən, zəmanəmizin iki ən böyük hərbi münaqişəsi (Yaxın Şərq və Ukrayna) arasında məkanda qalan Cənubi Qafqaz regionu bu gün öz tranzit potensialından tam istifadə etmək, bütün dünya qarşısında stabillik zonası kimi görünmək üçün unikal imkana malikdir. Qonşu dövlətlərdən və planetin digər regionlarından (Çin, Hindistan, Aİ) tərəfdaşlar üçün cəlbedicidir. Danışıqlar prosesini ləngitmək və Ermənistanla Azərbaycan arasında sərhədləri müəyyən edəcək və Azərbaycan və Türkiyə ilə diplomatik münasibətləri bərpa edəcək sazişin bağlanmasından imtina etmək üçün istənilən addım məsuliyyətsiz və Ermənistanın milli maraqlarına zidd görünür. Üstəlik, 3 ən böyük qonşu dövlət (Rusiya, Türkiyə və İran) arasında konsensus formalaşıb ki, nəhayət ki, Cənubi Qafqazda diplomatiya vaxtı çatıb”,- professor bildirib.

Onun fikrincə, indi aydın olur ki, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan, əsasən, Fransa və Atlantik birliyi ölkələrinə diqqət yetirərək, yuxarıda qeyd olunan qruplardan birincisi ilə bağlı daha çox narahatdır və Brüssel və Parisin bu işə qarışacağına stavka edir. Bu danışıqlar prosesinin qeyri-müəyyən müddətə gecikdirilməsinə imkan verəcək. İqtisadi artımın və xarici ticarət dövriyyəsinin hazırkı yaxşı göstəricilərini saxlamaqda maraqlı olan Ermənistan işgüzar dairələrinin, eləcə də parlamentarilərin əsas hissəsi yuxarıdakı sualların ikinci qrupuna cavab axtarır.

“Sabit siyasi vəziyyətdə Ermənistanın baş naziri Paşinyan yəqin ki, iki əsas qüvvə arasında manevr etməyə üstünlük verəcək və son nəticədə Azərbaycanla sülh müqaviləsinin imzalanmasına öz dövləti üçün ən faydalı yol kimi razılaşacaq. Ancaq sülh müqaviləsinin qeyri-müəyyənliyi xarici siyasətdəki səhv hesablamalara görə məsuliyyətlə bağlı suallara cavabları “sonraya” təxirə salmaq imkanı verən Paşinyanın siyasətindəki hazırkı “məhdud rasionallıq” dövrünü Leon Trotskinin məşhur düsturu ən yaxşı şəkildə təsvir edir: “ Nə sülh, nə müharibə, sülh imzalamırıq, biz müharibəni dayandırırıq və ordunu tərxis edirik”.

Sovet Rusiyası üçün bu siyasətin necə başa çatdığı hamıya məlumdur. İndi biz İrəvanda rasional siyasi və iqtisadi hesablamaların nə qədər tez qalib gələcəyini və nəhayət Azərbaycanla sülh müqaviləsinin imzalanacağını izləyəcəyik”, - deyə Tkaçenko yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***



SON SƏHİFƏ

SƏS

22 dekabr
2023-cü il


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
**7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
**8. Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Qadın ölümlərində “TikTok” və serialların rolu var?




***“Zorakılıq edən insanlara ictimai qınaq lazımdır”. Bu sözləri SİA-ya açıqlamasında Vəfa Sosial Problemlərinin Həllinə Dəstək İctimai Birliyin sədri, sosial məsələlər üzrə ekspert Fatimə Hacıbəyli deyib. Onun sözlərinə görə, qadınlara qarşı münasibətdə hazırda kəskin dəyişiklik var: “Kişilər bütün günahları qadınlarda görürlər. Qadınlara qarşı zorakılığın artmasında həm sosial şəbəkənin, həm də televiziyanın rolu danılmazdır”.***

Fatimə Hacıbəyli sözlərinə belə davam edib: “Bu gün bəzi qadınlar ailəsinə vaxt ayırmaq əvəzinə seriala baxmağa, sosial şəbəkədə vaxt keçirməyə üstünlük verir. Təbii ki, bu da ailədə narazılığa səbəb olur. Bu kimi səbəblər psixoloji problemi olan, işdən əsəbi gələn kişilərin daha da qıcıqlanmasına səbəb olur. Düşünürəm ki, insanlar ilk növbədə ailə- məişət problemlerini həll etsin, sonra sosial şəbəkəyə vaxt ayırsın”.

***Ayşən Vəli***

# Xankəndidə "Qarabağ" mərhələ adladı



Dünən futbol üzrə Azərbaycan kubokunda 1/8 final mərhələsinin qarşılaşmaları keçirilib. Ağdamın “Qarabağ” komandası adını daşıdığı Qarabağ bölgəsinin mərkəzi şəhərlərindən olan Xankəndidə MOİK-lə qarşılaşıb. Bu, 30 illik fasilədən sonra Qarabağ bölgəsinin işğaldan azad edilən hissəsində ilk rəsmi oyun olub. ”Qarabağ” 90+5-ci dəqiqədə vurduğu qolla 1:0 hesabı ilə qalib gəlib və 1/4 finala adlayıb.

# XƏBƏRDARLIQ: ”Uşaqlarınıza yeni il qutusu alarkən diqqətli olun”

***“Hər il yeni ildən sonra Azad İstehlakçılar Birliyinə valideynlər tərəfindən telefon zəngləri daxil olur ki, yeni il hədiyyələrindən uşaqlarda zəhərlənmə, ürəkbulanma olub". Bu barədə SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib.***



Onun sözlərinə görə, bu problem illərdir yaşanır: “Təəssüflər olsun ki, bəzən yeni il şənliklərində valideynlər diqqətini şouya verir, uşaqlar isə qutuları açır və oradan hər cür qidanı qəbul edirlər. Əksər hallarda biznes qurumları bu qutuların içərisinə vaxtı keçmiş malları yığırlar. Bəzən də bu qutulara uşaqlar üçün uyğun olmayan məhsullar yığılır və satılır”.

E.Hüseynov bildirib ki, bu cür qutular eləcə də dükanlarda satılır və dükan sahibləri istehlakçıya qutuları açıb baxmağa imkan vermir: “O qutulardan bəziləri açılıb yenidən bağlana bilir, bəziləri isə yapışqanla yapışdırılıb. Açılıb bağlana bilən qutuları alan zaman istehlakçılar diqqət yetirə bilərlər ki, malların üzərində yararlılıq müddəti varmı. Buna əhəmiyyət vermək lazımdır. Bütün istehlakçılara şübhələndikləri məhsul gördükdə ”1003 qaynar telefon xətti” ilə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinə məlumat vermələrini tövsiyyə edirəm.

Yeni il qutuları Rusiya, Çin, Belarusiyadan gətirilir və eləcə də Azərbaycanda da hazırlanır. Bütün hallarda istehlakçılar bu qutuları alıb uşaqlarına verən zaman onun içərisinə öncədən baxsınlar. Bəzən uşaqlarda allergiya yarada bilən qidalar da olur. Ona görə də valideynlər uşaqlarına uyğun olan qutuları seçsinlər”.

***Rəşid Qarayev***

# “Parkovşik” 5 milyonluq maşınla qəza törətdi

İstanbulda avtomobil dayanacağındakı nəzarətçi müştərinin ona həvalə etdiyi maşını sürərək qəza törədib. Həmin anları nəzarətçi ilə bərabər avtomobilə əyləşən digər şəxs anbaan qeydə alıb. Qeyd olunub ki, lüks idman avtomobilinin dəyəri beş milyon türk lirəsi olub. Qəza nəticəsində lüks avtomobilin ön hissəsi ciddi zədələnib.





*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**